

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Öz torpağımızda yenidən məskunlaşırıq



6

# SƏS

№ 186 (6869)

12 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

## "Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb"



2

**Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib**

## Məntiqsiz və əsassız spekulyasiyalarla edilən

# BLEF




5

## Atalar və oğullar: Aradakı soyuq divarların səbəbi nədir?



7

## Bir yataqda, yan-yana...



13

## İkisi də təhlükəlidir: normalı da, elektronu da



11

## Sükan arxasında telefonla danışmaq qəza və ölümə yol açır!



16

## Erməni iştahası



9

Prezident İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını - Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikovu, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini, Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri İvan Terteli, Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sədri Yermek Sagimbayevi, Qırğızıstanın Baş nazirinin müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevi, Özbəkistanın Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovu, Tacikistanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimovu və MDB-yə üzv dövlətlərin Antiterror Mərkəzinin rəhbəri Yevgeniy Sısoyevi qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

# “Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb”

## Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib



**"Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq"**

Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, Azərbaycan MDB-nin işində iştirak etməyə həmişə böyük əhəmiyyət verib. Bütün istiqamətlər üzrə və əlbəttə, təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində sıx təmaslar mövcuddur: "Sizin işiniz, həmçinin həmkarlar arasında qarşılıqlı fəaliyyət hazırkı mürəkkəb beynəlxalq şəraitdə xüsusi əhəmiyyətə malikdir, çünki təhdidlər artır, yeni qeyri-sabitlik ocaqları yaranır və ölkələrimizin sabitliyi və təhlükəsizliyi bir çox hallarda sizin strukturların operativ işindən asılıdır.

Düşünürəm ki, siz bugünkü iclasda da əməkdaşlığın möhkəmləndirilməsi məsələlərini müzakirə edəcəksiniz. Əlbəttə, daim operativ informasiya mübadiləsi aparmaq zəruridir. Siz hamıdan yaxşı bilirsiniz ki, informasiya, o cümlədən onun qəbul edilməsi və ona reaksiya verilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əlbəttə ki, ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyət əməkdaşlığın səmimi, məqsədyönlü, nəticəyə və mümkün təhdidlərin profilaktikasına və ya aradan qaldırılmasına yönəlmiş əməkdaşlıq üçün gözəl imkanlar yaradır."

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, ölkələrimizin yerləşdiyi regionlarda, əlbəttə, xarici təhdidlər də mövcuddur və bu istiqamətdə operativ iş riskləri minimuma endirməyə imkan verir. Bizim ölkələrin yerləşdiyi məkanda ictimai-siyasi sabitliyin möhkəmləndiyini görmək sevindiricidir və dövlətlərimiz bir çox çağırışların öhdəsindən uğurla gəlir:

"Azərbaycana gəldikdə, artıq bizim daxili təhdidlərimiz yoxdur. Üç həftə əvvəl həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Əlbəttə, bu, regionumuzda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Biz buna çalışırıq və hesab edirik ki, başqa alternativ yoxdur. Son həftələrdə baş verən hadisələrin mətbuatda, ilk növbədə, Qərb mediasında müxtəlif cür, deyərdim ki, birtərəfli, qərəzli və nə məsələnin tarixini, nə də bugünkü reallıqları tamamilə əks etdirmədən təqdim olunduğunu nəzərə alaraq, son üç ildə baş verənlər barədə sizi qısaca məlumatlandırmaq istəyirəm. Amma mənim informasiyamın, nəcə deyərlər, daha dolğun olması üçün tarixə qısa ekskursiya etmək istəyirəm.

Ondan başlayım ki, Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb. 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olmuş Qarabağ xanlığı olub. Kürəkçay sülh müqaviləsi imzalanıb, onu Azərbaycan tərəfindən Qarabağ xanı İbrahim Xəlil xan,- o, Qarabağın və Şuşanın xanı idi,- Rusiya tərəfindən isə çar generalı Sisianov imzalayıblar. Kürəkçay müqaviləsinin mətni internetdə var və hər kəs tanış ola bilər. Orada erməni əhalisi və ya erməni əhalisinin hansısa xüsusi hüquqları haqqında heç bir xatırlatma yoxdur. Yəni, bu, bir daha aydın şəkildə ondan xəbər verir və tarixçilər də yaxşı bilirlər ki, Qarabağ əsrlər boyu, minilliklərlə bu ərazidə yaşamış azərbaycanlıların məskunlaşdığı qədim torpaqdır. Kürəkçay sülh müqaviləsindən sonra Azərbaycan xanlıqları ilə Rusiya arasında digər Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da Rusiyanın tərkibinə daxil olduğu daha iki - 1813-cü ildə Gülüstan sülh müqaviləsi və 1828-ci ildə Türkmənçay müqaviləsi olub. Həmçinin bu sənədlərdə, təbii ki, söhbət Azərbaycan torpaqlarından gedirdi. Cənubi Qafqazın sovetləşdirilməsindən sonra Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. O nə üçün yaradıldı? Çünki XIX əsrin həmin sənədlərindən sonra erməni əhalisinin İrandan və Şərqi Anadoludan Azərbaycan ərazilərinə kütləvi köçü başlandı. Artıq sovetləşdirmə məqamında Azərbaycanın Qarabağ regionunun milli tərkibi XIX əsrin əvvəlində olduğundan fərqli idi. Bunları nəzərə alaraq, ola bilər ki, daha hansısa səbəblərdən sovet hakimiyyəti, Sovet İttifaqı artıq həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətini, hətta respublika deyil, Azərbaycan SSR-in tərkibində vilayət yaratdı. Bu, tam yüz il əvvəl baş verib. Artıq Sovet İttifaqında mərkəzdənqaçma meyilləri başlayan vaxtda, erməni separatçılığının və təcavüzkar ekstremizmin baş qaldırdığı 1980-ci illərin sonunda qeyri-rəsmi ekstremist təşkilatları yaradıldı, təəssüf ki, mərkəzi sovet rəhbərliyi tərəfindən buna lazımi qiymət verilmədi, bir çox hallarda isə onları dəstəklədilər.

Hamımız 1980-ci illərin sonunda Sovet İttifaqına kimin başçılıq etdiyini xatırlayırıq və təbii ki, başqa nə isə gözləmək mümkün deyildi. Bütün bunlar ona gətirib çıxardı ki, Azərbaycan və erməni xalqları arasında ənənəvi sülh, dostluq və qarşılıqlı anlaşma münasibətləri pozuldu, zərərli milli müstəsnalıq, üstünlük ideologiyası ortaya atıldı və Azərbaycanın Qarabağ torpağına iddiaları əsaslandırmaq üçün cəhdlər edilməyə başlandı. Bu tendensiyalar artıq Sovet İttifaqının süqutundan sonra açıq təcavüz və Azərbaycan torpaqlarının işğalı ilə davam etdi. Nəticədə Azərbaycan ərazisinin təxminən 20 faizi - həm Qarabağ bölgəsi, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti, həm də həmin muxtar quruma heç bir aidiyyəti olmayan yeddi rayon işğal edildi. Etnik təmizləmə həyata keçirildi, bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovuldu və 2020-ci ilin payızına qədər vəziyyət belə olaraq qaldı. Azərbaycan bütün vasitələrlə məsələni sülh yolu ilə həll etməyə çalışdı. Biz ATƏT-in himayəsi altında uzunmüddətli və nəticəsiz danışıqlar prosesində iştirak etdik. Yeri gəlmişkən, bu münaqişənin nizama salınmaması bir daha göstərir ki, ATƏT-də böyük dəyişiklik olmalıdır. Bu münaqişənin timsalında biz həm də Birləşmiş Millətlər Təşkilatının öz nüfuzundan və öz rıçaqlarından istifadə edə bilməməsinin şahidi olduq. Belə ki, BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, onlar əməldə yerinə yetirilmədi. Biz uzun müddət gözlədik, bizim ümidlərimiz var idi. Mən 2004-cü ildən müxtəlif mərhələlərdə danışıqlarda iştirak etdim, lakin təəssüf ki, 2019-cu ildə bütün ümidlər puça çıxdı. O vaxt Ermənistanın baş naziri bəyan etdi ki, "Qarabağ Ermənistandır və nöqtə". O, bununla bütün danışıqlara son qoydu və onları tamamilə mənasız etdi. Onu demək lazımdır ki, bu, suveren Azərbaycan dövlətinə qarşı açıq ərazi iddiası idi, çünki dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan qondarma "Dağlıq Qarabağ respublikasını" tanımırdı. Yəni, erməni rəhbərliyinin bu təxribatçı, düşünülməmiş, deyərdim ki, aydın olduğu kimi, özünə qarşı suiqəsdçi addımı və digər, o cümlədən hərbi xarakterli təxribat fəaliyyətləri, 2020-ci ilin sentyabrında 44 gün davam edən, Ermənistan ordusunun tamamilə darmadağın olması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsinin başlanmasına gətirib çıxardı. Rusiya Federasiyasının və şəxsən Prezident Vladimir Vladimiroviç Putinin vasitəçiliyi ilə 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə keçmiş Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların hələ də işğal altında olan ərazilərinin də Azərbaycana qaytarılmasını, regiona isə Rusiya sülhməramlı kontingentinin yeridilməsini nəzərdə tutan üçtərəfli Bəyanat imzalandı.

**İlham Əliyev: “Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, amma 2-3 saata Bişkekə uça bilmir”**

Məsələnin qısa tarixçəsi budur. Belə bir sual yarana bilər: bəs, üç həftə əvvəl nə baş verib? Belə ki, barəsində danışdığım Bəyannamənin imzalanmasına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Buna əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi.

Hətta iki il ərzində - 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda, oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şəkildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər həftə artır.

Azərbaycana qarşı ərazi iddialarına son qoymaqla bağlı Ermənistana edilən çoxsaylı çağırışlar qəribə reaksiyaya səbəb olub ki, həm də bununla bağlı sizi məlumatlandırmaq istərdim. Bir il əvvəl - ötən ilin oktyabr ayında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdaşlarla görüşündə Bəyanat qəbul edildi. Bu sənədə əsasən hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını və ölkələrimizin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfindən atılan mühüm addım hesab etdik, Azərbaycana qarşı ərazi iddialarından nəhayət əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi bütövlüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma "Dağlıq Qarabağ respublikasının" yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi.

Ardı Səh. 3

# “Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb”

Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib




## Prezident: “Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında vasitəçilik PR-aksiyası xarakteri daşımamalıdır”

Əvvəli Səh. 2

Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma ”Dağlıq Qarabağ”ın qondarma hakimiyyət orqanları ”seçki” keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi. Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq. Bax, prinsip etibarilə, məsələnin tarixçəsi bundan ibarətdir.

Bəs ətrafda nə baş verir? Bunu da düşünürəm ki, ətrafda baş verənlər barədə verdiyimiz qiyməti bizdən eşitməyiniz sizin üçün maraqlı olar. Ondan başlayaq ki, Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan təxminən bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir. Otuzillik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə-yeksan edilməsi, Xocalı soyqırımı - bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur. Lakin yeri gəlmişkən, onu da deməliyəm ki, elə dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur.

Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da çatdıracağıq.”

Dövlət başçısı daha sonra Fransa rəhbərliyinin 2020-ci ilin bütün dövründən başlayan və indi də davam edən qeyri-konstruktiv və təxribatçı rolu barədə fikirlərini bildirib: ”Azərbaycanın ünvanına çoxsaylı ittihamlar, əsassız təhdidlər və şantaj heç bir səmərə vermədi. Fransa Prezidentinin bu yaxınlarda Azərbaycanın beynəlxalq hüquqla problemləri olduğuna dair verdiyi bəyanat yalnız gülüş doğura bilər. Çünki Azərbaycan beynəlxalq hüququ pozmayıb. Biz öz ərazimizdə döyüşmüşük, separatizmi aradan qaldırmışıq, bütün humanitar normalara, Cenevrə Konvensiyasına əməl etmişik. Beynəlxalq hüququ isə 30 il ərzində Fransanın əlaltısı, bu gün onun əsas müttəfiqi olan Ermənistan başqa dövlətin ərazisini işğal edərək pozub. Necə deyərlər, öz gözündə tiri görməyib başqasının gözündə tük axtarmaq lazım deyil. Fransız rejimi milyon yarım əlcəzairlini təkcə əlcəzairli və müsəlman olduğuna görə məhv edib. Bu, soyqırımıdır. Hələ Fransanın Afrikada, Afrikanın digər hissələrində və bütün dünyada qanlı cinayətlərini demirəm. Fransanın bu gün müstəmləkələr saxlaması da ağlasığmazdır. Azərbaycan və şəxsən mənim tərəfimdən bu məsələ Qoşulmama Hərəkatının sədri kimi dəfələrlə Qoşulmama Hərəkatının sammitlərində qaldırılıb və qanlı müstəmləkə keçmişi olan və hətta bu gün bəzi Afrika ölkələrinin nə qədər səy göstərsələr də, xilas ola bilmədikləri bu ölkə bizi beynəlxalq hüququ pozmaqda ittiham edir. Bu, absurddur.

Daha bir məsələ. İndi bəzi ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında vasitəçilik xidmətləri göstərməyə çalışır. Mən bu yaxınlarda demişəm ki, əgər bu siyasət birtərəfli xarakter daşımırsa və qərəzli deyilsə, biz bu cəhdləri qəbul edirik. Amma Fransanın bir tərəfdən bütün diplomatik normaları pozduğunu, təhqirlərlə səciyyələnən bəyanatlarını, çirkin uydurmalarını, təxribat və yalanlarını görürüksə, digər tərəfdən onun vasitəçilik xidmətləri göstərmək cəhdləri heç bir məntiq çərçivəsinə sığmır. Bizə belə vasitəçilər lazım deyil. Bu birincisi. İkincisi, kimsə vasitəçilik etmək istəyirsə, bu, PR-aksiyası xarakteri daşımamalı, əməldə nəticəyə yönəlməlidir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, oktyabrın 12-də, bir gün sonra Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Bişkekdə görüşü olmalı idi. Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz, müttəfiqimiz, həmçinin bizim regionda yerləşən, minlərlə kilometr uzaqda olan ölkələrdən fərqli olaraq qonşuluqda yerləşən Ermənistanın da müttəfiqidir. Təbii ki, ölkələrimiz arasında münasibətlərin tarixi, əlbəttə, Rusiya tərəfinin vasitəçiliyini nəzərdə tutur. Biz bu təklifi müsbət qarşıladıq və xarici işlər nazirimiz Rusiya və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, erməni tərəfi bu görüşdən imtina etdi. İndi sual yaranır: Ermənistan sülh istəyirmi? Zənnimcə, xeyr, çünki əgər sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə edildiyi mənasız görüşdə iştirak edir, amma 2-3 saata Bişkekə uça bilmir, onun mühüm işləri varmış. Bax, biz bütün bunları açıq deməliyik. Bütün bunları hamı görür, ancaq bunu danışmaq və nəzərə almaq lazımdır.

Öz şərhlərimə yekun vuraraq onu da demək istərdim ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz buna hazırıq. Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq. Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycan ilə Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcək.”

Daha sonra Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikov çıxış edərək, MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının növbəti iclasının Azərbaycanda keçirilməsinə şərait yaradıldığına görə təşəkkür edib. O qeyd edib ki, Azərbaycan həmişə Şuranın işinin təşkili üçün əlverişli və gözəl şərait yaradır. ”Əlbəttə, biz bugünkü tədbirimizin hazırlanmasında aparılan ilkin işlərə görə Azərbaycan Təhlükəsizlik Xidmətinin rəhbərinə də minnətdarıq. Demək istəyirəm ki, fəaliyyət göstərdiyi bütün dövr ərzində Şura öz əhəmiyyətini sübut edib. Sizin bu gün xüsusi xidmət orqanlarının rəhbərlərinə çatdırdığınız məsələlərin əksəriyyəti Sovet İttifaqının süqutundan sonra qarşılaşdığımız problemlərin fonunda real olaraq mövcuddur.

Çox təəssüf ki, hər bir respublika, hər bir suveren dövlət bu və ya başqa dərəcədə bizim Şuranın tədbirlərində müzakirə etdiyimiz problemləri yaşayıb. Bunlar bizim son illər daim bəhs etdiyimiz separatçılıq və ekstremizm təzahürləridir. Biz bu və ya başqa dərəcədə bununla qarşılaşmışıq. Biz bilavasitə dövlətlərimizin təhlükəsizliyi, suverenliyi, konstitusiya quruluşu ilə bağlı məsələlərdən danışırıq, belə ki, həm ölkənin daxilində olan, həm də xarici amillərlə bağlı bəzi problemlərin hamısı ümumilikdə təhlükəsizlik məsələlərinə təsir göstərir.

Çox təəssüf ki, son vaxtlar MDB dövlətlərinin demək olar ki, hamısı Sizin indi söylədiyiniz bu və ya digər məsələlərlə qarşılaşır. Hesab edirəm ki, bugünkü iclasımız birgə işimizin bütün istiqamətləri üzrə irəliləməyə kömək edəcək.”

## XİN-dən Paşinyana cavab: ”Azərbaycan Ermənistanın qonşularına qarşı ərazi iddialarından çəkinəcəyini gözləyir”



Sentyabrın 20-də ölkəmizin ərazisindən erməni silahlı qüvvələrinin və Ermənistanın yaratdığı separatçı rejimin qalıqlarını təmizlədikdən sonra bölgədə sülh üçün böyük imkanlar yarandığını dəfələrlə bəyan edən Azərbaycan, eyni zamanda, Ermənistanın ölkəmizə və digər qonşularına qarşı ərazi iddialarından və müdaxilədən çəkinəcəyini gözləyir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın ”Birinci kanal”a müsahibəsi zamanı səsləndirdiyi iddialara dair şərhində qeyd edilib.

”Azərbaycanın guya ”Avropa Siyasi Birliyi”nin Qranada görüşündə iştirakdan imtina etməsinin səbəbinin ölkəmizin sülhə hər vəchlə mane olması kimi qələmə verən Ermənistan tərəfinə ötən ilin dekabrından etibarən Ermənistanın heç bir səbəb olmadan müxtəlif platformalarda iştirakdan yayındığı faktlarını xatırlatmaq istərdik. Ermənistandan fərqli olaraq, Azərbaycan Ermənistanın uzun müddət heç bir rəy vermədiyi sülh prinsipləri, sülh müqaviləsi, kommunikasiyaların açılması, demarkasiya məsələsində əsas təşəbbüskar tərəf olduğu, bütün platformalarda hər bir vasitəçinin səylərinə daim hörmətlə yanaşdığı hər kəsə məlumdur”, - deyə açıqlamada qeyd olunub.

# Müdrik Lider, Qalib Sərkərdə!



Azərbaycan Prezidenti İlham Əliyev son 20 ildə xalq qarşısında verdiyi bütün vədləri səylə, ardıcıl və sistemli surətdə yerinə yetirir. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə böyük inam və əminlik yaradır. Prezident İlham Əliyev son illərdə imzaladığı fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik, real qərarlarla ölkəmizin dinamik yüksəlişini təmin edib. Dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Ölkə başçısının gördüyü işlər, həyata keçirdiyi bütün layihə və proqramlar, ilk öncə milli maraqları özündə əks etdirir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.

Cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmiz bütün sahələr üzrə sürətli inkişaf yoluna qədəm qoydu. Müstəqil Azərbaycanın yürütdüyü siyasət ölkəmizin etibarlı və strateji tərəfdaş kimi nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərək bildirmişdi: "İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu inam Ulu Öndərin siyasi varisi Cənab İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu.

## "HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞININ PREZİDENTİ OLACAĞAM VƏ AZƏRBAYCAN XALQININ ETİMADINI DOĞRULDACAĞAM"

Dövlət başçısının verdiyi bütün vədlər və təqdim etdiyi proqramlar yerinə yetirilib. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Odur ki, xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısına, əmin-amanlığa, tərəqqiyə və quruculuğa səs verdi. 2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilən prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşdü. Ölkə vətəndaşlarının səsvermədəki fəallığı seçkiləri müşahidə edən xarici ekspertlərin diqqətindən yayınmadı. Müşahidəçilərin hamısı bu amili yüksək qiymətləndirərək son illərdə ölkəmizdə demokratik proseslərin uğurla getdiyini, prezident seçkilərinin azad və şəffaf keçirildiyini bildirdilər.

Azərbaycan vətəndaşları 2013-cü ildə yenidən öz səslərini İlham Əliyevə verdilər. Əslində, Azərbaycan xalqı bu növbəti seçkidə son 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və qazanılan uğurların davam etdirilməsinə səs verdi. Çünki Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmləndi, ölkəmizin dünyadakı nüfuzu artdı. Dövlətimizin başçısının uğurlu fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olundu. Həyata keçirilən qlobal və regional layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirdi. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrildi.

Azərbaycan dünyada güclü və nüfuzlu dövlət və davamlı inkişafın təmin olunduğu ölkə kimi tanınır. Müasir dövrün qlobal çağırışlarına dəstək verən müstəqil Azərbaycanın yürütdüyü siyasət, ölkəmizin etibarlı və strateji tərəfdaş kimi, nüfuzunu beynəlxalq aləmdə yüksəldib və dünya birliyinin ayrılmaz hissəsinə çevirib. Müstəqil dövlətimizdə kənd təsərrüfatında, kosmik sənayedə, hərbi sənayedə, səhiyyədə, təhsildə və s. əldə olunan uğurlar, eləcə də, beynəlxalq səviyyədə qurduğu münasibətlər, davamlı inkişaf əldə olunan nailiyyətlərdir. Tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarlarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb. Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə güclənməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yaradıb. Əlbəttə, xalqımız görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirir və ən yüksək səviyyədə qiymətləndirir. Azərbaycan Prezidenti İlham Əliyev 2003-cü ildə ölkənin Prezidenti vəzifəsinin icrasına başladığı zaman çıxışında dediyi sözləri xatırlatmaq yerinə düşər: "Milliyyətindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam və Azərbaycan xalqının etimadını doğruldacağam". Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşı üçün Prezident oldu və xalqın etimadını doğrultdu.

## "ÜZV OLDUĞUMUZ BÜTÜN TƏŞKİLATLARDA BİZİM SÖZÜMÜZÜN BÖYÜK ÇƏKİSİ VAR"

Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmayıb. Ölkə başçısı İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir: "İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var". Ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul olunması onun dünya miqyasında artan nüfuzundan və uğurlu xarici siyasətindən xəbər verir. Dünyanın 155 ölkəsi Azərbaycana səs verdi. Cənab Prezident "Bizim siyasətimiz, addımlarımız, xoş niyyətimiz və xarici siyasətimizin əməkdaşlıq üzərində qurulması bizə böyük dostlar düşərgəsi qazandıra bilmişdir. Təsadüfi deyildir ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə üzv seçilmişdir. Bu, bizim böyük siyasi, diplomatik qələbəmizdir, müstəqil Azərbaycanın böyük uğurudur", - deyə bildirmişdir.

## "ÖLKƏDƏ HƏYATA KEÇİRİLƏN SİYASƏTİN MƏRKƏZİNDƏ, MƏHZ AZƏRBAYCAN VƏTƏNDAŞLARI, ONLARIN MARAQLARI DAYANIR"

Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində, bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilmiş, sahibkarlığın inkişafı istiqamətində də bir sıra önəmli addımlar atılmış, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanı ölkədə sahibkarlığın inkişafında yeni mərhələ oldu və sahibkarlığın inkişafı üçün geniş imkanlar açmış oldu. Həyata keçirilən tədbirlərin, reallaşan dövlət proqramlarının davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı ölkəmizdə əhalinin məşğulluq imkanlarının artırılmasına yönələn kompleks tədbirlər sırasında əhəmiyyətli Sənəddir. Sərəncam aztəminatlı ailələrin məşğulluğuna və əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərinin artmasına, əlavə iş yerlərinin yaradılmasına, eləcə də, kiçik və orta sahibkarlığın inkişafına geniş imkanlar yaratmış oldu.

Dövlət başçısının uğurlu sosial siyasəti respublika əhalisinin rifah halının yaxşılaşdırılması, sosial cəhətdən həssas əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində kompleks tədbirlərin ildən-ilə gücləməsinə, geniş əhali kateqoriyalarını əhatə edən etibarlı sosial müdafiə sisteminin formalaşdırılmasına imkan yatmış oldu. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Davamlı olaraq, islahatların həyata keçirilməsi vətəndaşların rifahının daha da yüksəldilməsinin, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsinin daim dövlətin diqqət mərkəzində olduğunun əyani göstəricisidir.

## MÜDRİK SİYASƏT VƏ YEKDİL ƏHVAL-RUHİYYƏ QƏLƏBƏ QAZANDIRDI

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi. Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi və silahlı qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsi sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında böyük işlər görülüb. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını 44 günlük Vətən müharibəsində erməni işğalı altında olan əraziləri azad edərək əzəli torpaqlarımızda dalğalandırdı. Gənc, müstəqil dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi, məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində Zəfər qazandıq. Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 il müddətində davam edən işğala cəmi 44 gün müddətində son qoymağı bacardı, Ermənistanı diz çökdürdü, təslim olmağa məhkum etdi. Və Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər sərkərdəsi kimi öz möhürünü vurdu.

## "AĞALI KƏNDİNİN TİMSALINDA HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI VƏ ÜMUMİYYƏTLƏ, HƏR BİR İNSAN BİZİM PLANLARIMIZI GÖRƏ BİLƏR"

Bu gün Azərbaycan yeni bir dövrünü yaşayır. İşğal altından azad olunan ərazilərimizdə abadlıq-quruculuq işələri sürətlə davam etdirilir. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Artıq görülən işlərin məntiqi nəticəsi olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyə Prezident bildirib.

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlarından birinə çevrilib.

**_Zümrüd BAYRAMOVA_**

# Məntiqsiz və əsassız spekulyasiyalarla edilən

# BLEF

Avropa İttifaqının Bakıya qarşı hansısa sanksiyalar tətbiq edəcəyinə guya ümid etdiklərini göstərib bununla da hiylәgərlik edənlər əslində, özlərini aldatmış olurlar. Ermənistanın da, bu ölkənin havadarlarının da sanksiyalara ümid etməsi yanlışlıqdır və sözdə deyilsə də çətin ki, buna inanan ola. Əvvəla, hamı bilir ki, rəsmi Bakı beynəlxalq hüququn norma və prinsplərini pozmayıb və öz toxunulmaz suverenlik hüququndan istifadə edərək, ərazilərində antiterror tədbirləri keçirib və bu da təhlükəsizliyin, ərazi bütövlüyünün təminatına hesablandığı üçün tam qanunauyğundur. Digər tərəfdən də, Azərbaycan Avropa İttifaqı üçün maraqlı tərəfdir və bütün bunlar nəzərə alınaraq rəsmi Bakıya qarşı sanksiyaların tətbiq edilməsi mümkünsüzdür, hansı ki, hər kəs bunu yaxşı bilir.

Brüssel Azərbaycan qazını Rusiya qazına alternativ hesab edir və bu baxımdan Avropa İttifaqının ölkəmiz əleyhinə, özü də əsassız şəkildə hansısa sanksiya tətbiqi barədə qərar qəbul etməsi belə məntiqi deyil və bunu gözləmək yanlışlıq sayılır. Təsadüfi deyil ki, təkcə Ermənistanda yaşayan ermənilər deyil, Avropa İttifaqının özündə də ermənipərəst şəxslər, siyasətçilər Bakıya qarşı sanksiyaların tətbiqinə əsas maneə kimi Avropa İttifaqının Azərbaycanın enerji resurslarından asılılığını göstərirlər. Elə bu səbəbdən də ermənilər özləri də bilməlidirlər ki, buna ümid etmələri tamamilə yersizdir. Deməli, bu barədə hansısa məntiqsiz olaraq spekulyasiyalara yol verilməsi, hansısa iddialar səsləndirilməsi sadəcə olaraq, blefdir.

Sanksiyalar barədə müzakirələr etmək, gündəm yaratmaq əslində hiylədir. Bu, Ermənistanın, ermənilərin və ermənipərəstlərin hiyləsidir. Bir halda ki, istənilən sanksiyanın tətbiqi beynəlxalq hüquqla əsaslandırılmalıdır və belə bir əsaslandırma mümkün deyil, deməli, bu barədə danışanlar belə hiyləgərlik edirlər və tamamilə başqa məqsədləri var. Çünki beynəlxalq hüquqla əsaslandırılması mümkün olmayan bir məsələ ətrafında aparılan müzakirələr tamamilə başqa məqsədlər üçündür. Azərbaycan beynəlxalq hüquqa zidd heç bir hərəkətə yol verməyib və belə olan halda hansı sansiyadan söhbət gedə bilər? Sözsüz ki, mövcud, real vəziyyətin fonunda Azərbaycana qarşı heç bir sanksiyadan söhbət getməməlirir və əgər söhbət gedirsə, deməli, bu hiylədən istifadə edilməsi nəyəsə hesablanıb və çox güman ki, Azərbaycanı öz qətiyyətli mövqeyindən geri çəkindirmək ön planda durur. Deməli, hiyləyə əl atılır, hiyləgərlik edilir və bununla nəyə isə nail olunacağı barədə hayların öz utopiya ənənələrinə uyğun şəkildə xəyal qurulur.

Xatırladaq ki, ermənidən betər erməni kimi özünü aparan Fransa prezidenti belə üstüörtülü şəkildə sanksiyalar barədə qərar verilməsinin mümkünsüzlüyünü etiraf edib və sansiya tətbiqinin mümkün olmamasını məhz Azərbaycanın öz ərazisində qanuni hərəkətlər etməsi ilə izah edib. Çünki Emmanuel Makron özü hamıdan yaxşı bilir ki, Azərbaycan öz ərazisində öz suverenliyini bərpa edib, qeyri-qanuni, qanunsuz heç nə etməyib. Onu da yaxşı bilir ki, öz suverenliyini bərpa edən Azərbaycan nə beynəlxalq hüquqa zidd hərəkətlərə yol verməyib, nə müharibə çinayətləri törətməyib, nə də qeyri-humanist addımlar atmayıb. Bilir ki, Azərbaycan humanizm prinsplərinə sadiqlik nümayiş etdirib, 44 günlük müharibə dönəmində də, anti-terror tədbirlərini həyata keçirəndə də, Gəncəni, Bərdəni, Mingəçeviri hədəfə alaraq, həmin şəhərlərə qadağan olunmuş raketlər atan Ermənistan tərəfindən fərqli olaraq, dinc sakinləri hədəfə almayıb. Bunu bilə-bilə hansısa sanksiyanın tətbiqi barədə Avropa Parlamentinin məlum qətnaməni qəbul etməsi onun özü tərəfindən də müzakirə mövzusuna çevrilirsə, deməli, ermənipərəst Fransa lideri özü də ermənilərin hiyləsində iştirak etmeyi, hətta alət olmağı belə özünə rəva bilir. Amma onu bilmək və dərk etmək istəmir ki, belə hiylələrlə, hansısa blef etməklə Azərbaycanı öz haqq yolundan çəkindirmək, iradəsini sındırmaq, geri çəkilməyə məcbur etmək mümkün deyil, halbuki, o bunu bilməli idi. Ona görə bilməli idi ki, Fransa prezidenti nə 44 günlük müharibə dönəmində, nə post müharibə dövründə, nə də antiterror tədbirləri həyata keçirilən zaman Azərbaycanı öz haqq yolundan çəkindirməyə, geri çəkilməyə məcbur etməyin heç bir nəticə vermədiyini görmüşdü. Görmüşdü və şahidi olmuşdu ki, rəsmi Bakının iradəsinə qarşı gəlmək heç bir nəticə vermir və Azərbaycan Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti qarşısında istənilən qüvvə acizdir, istənilən hiylə və blef təsirsizdir. Əgər Makron bütün bunların şahididirsə, eyni zamanda, hansısa sanksiyanın tətbiq ediləcəyinə də inanmırsa, o zaman onun əl atdığı hiylə nəyə hesablanıb?

BMT missiyasının və ABŞ Dövlət Departamenti nümayəndəsinin Qarabağ ermənilərinə qarşı heç bir qondarma "etnik təmizləmə" faktlarının olmaması ilə bağlı bəyanatlarından özlərinə hələ gələ bilməyən ermənilər Avropa Parlamentinin qətnaməsi ilə guya təskinlik tapmaq istəyirdilər. Amma Avropa Parlamentinin ermənilər üçün guya "tarixi" sayılan qətnaməsindən heç nə əldə edə bilməyəcəklərini anlamaq məcburiyyətində qaldıqları zaman təskinlikləri belə qalmadı. Hansısa sanksiyalarla guya Azərbaycanın təhlükə ilə üzləşəcəyini göstərmək istəyənlər ən böyük havadar hesab etdikləri Makronun fikirlərindən sonra bunun da mənasız olduğunu anlamalı oldular. "İndi sanksiyaların vaxtı deyil. Onlar əks-məhsuldar olacaq və Ermənistan ərazisinin və əhalisinin ən yaxşı şəkildə müdafiəsinə mane olacaqlar", deyən Fransa prezidenti Makron erməniləri bərk məyus etmiş oldu. Çünki son ümidləri də puç oldu. Ona görə puç oldu ki, ermənilər özlərinə ən böyük havadar hesab etdikləri Fransa liderinin də buna, yəni sanksiyalara ümid etmədiyini gördülər. Yəni, ermənilər şahidi oldular ki, özlərinə arxa bildikləri Makron özü də bu zamana qədər blef edirmiş, amma onun etdiyi bütövlükdə erməni cəmiyyətinin etdiyindən daha müəmmalı imiş. Maraqlıdır, indi sanksiyaların vaxtı olmadığı, bu sanksiyaların əks-məhsuldar olacağı, hətta Ermənistan ərazisinin və əhalisinin ən yaxşı şəkildə müdafiəsinə mane olacağı qənaətində olan Makron bəs özü hansı hiyləyə əl atıb və onun hiyləgərliyi nəyə hesablanıb? Əlbəttə ki, Fransa prezidenti də öz hayındadır və onun hiyləgər oyunları da öz maraqlarına xidmət edirmiş, hansı ki, bunu ermənilərin gec də olsa başa düşməsi onlar üçün olduqca vacibdir. Gec də olsa ermənilər anlamalıdırlar ki, Makron sadəcə olaraq özünü qorumaq üçün Fransada yaşayan və seçkilər zamanı kifayət qədər səs potensialı olan erməni əsilli kontingentə özünü göstərmək üçün ermənipərəstlik edir. Deməli, Fransa prezidenti də blef edir və həm də onun etdiyi hiyləgərlik daha böyük miqyasda və daha böyük coğrafiyadadır.

Hadisələrin gedişi göstərir ki, ermənilər öz məğlubiyyətlərini həzm etməkdənsə, razılığa gəlməkdənsə, sülhə razı olmaqdansa, beynəlxalq ictimaiyyətə müraciət edib kimləri isə aldadaraq hiyləgərlik etməyi üstün hesab edirlər. Öz xislətlərinə uyğun olaraq, hələ də blef etməklə bütün dünyanı çaşdırmaq, hansısa qüvvələri Azərbaycana qarşı qoymaq, rəsmi Bakını öz qətiyyətli mövqeyindən çəkindirmək və məkrli niyyətlərini reallaşdırmaq erməni cəmiyyəti üçün sanki dəyişilməz tendensiya hesab olunur. Amma indi artıq həmin o erməni cəmiyyəti görməli və əmin olmalıdır ki, buna inanmaq, ümid etmək ağılsızlıq, axmaqlıqdır. Hətta arzuladıqları sanksiya barədə Avropa Parlamentinin qətnaməsinin belə işə yaramadığını görmək belə qənaətə gəlməyə əsas verir. Üstəlik, Azərbaycanın belə bir niyyətə düşməsi, hayların bu zamana qədər törətdikləri saysız-hesabsız cinayətlərə görə sanksiya tətbiqini tələb etməsi Ermənistan üçün fəlakət ola biləcəyini indidən dərk etməlri onlar üçün daha xeyirli olardı. Çünki rəsmi Bakı Ermənistanın törətdiyi əməllərə, müharibə cinayətlərinə görə sanksiya tətbiqi barədə müraciət etdiyi zaman beynəlxalq təşkilatlar bunun əsassız olduğu qənaətində ola bilməzlər. İstər ötən əsrin sonlarında törətdikləri soyqırımlar, etnik təmizləmə siyasəti yürütmələri, istər işğal dövründə əsirlərə qarşı vəhşiliklər, istərsə də 44 günlük müharibə dönəmində əl atdıqları cinayətlər yetərlidir ki, onlar barəsində sanksiyalar tətbiq olunsun. Təkcə mina terroruna görə Ermənistana sanksiya tətbiq edilməsi mümkündür. Hələ də ermənilərin basdırdığı minaların dinc sakinlər qurbanına çevrilirlər və Ermənistan həmin minaların tam olaraq xəritələrini vermir və verdikləri xəritələr də həqiqəti əks etdirmir. Bax elə bu faktın özü sanksiya tətbiqi üçün yetərli sayıla bilər. Məsələ burasındadır ki, Ermənistan özü qanunsuzluğa, cinayətkarlığa yol verdiyi halda, beynəlxalq hüququ və normaları tapdalayaraq qeyri-humanist hərəkətlərə yol verdiyi halda, qarşı tərəfə, Azərbaycan tərəfinə qarşı sanksiyalar tətbiq edilməsi iddiası ilə çıxış edir. Bununla sözsüz ki, bir neçə istiqamətdə yenə də blef edir və ən azından özünün deyil, qarşı tərəfin günahkar olması görüntüsünü yaratmaq fikrindədir. Amma bunun heç bir mənası yoxdur, çünki dünya ictimaiyyəti hər şeyi, bütün reallıqları artıq görür və kimin necə olduğunun fərqindədir. Ələlxüsus da, ermənilərin 30 il işğal altında saxlayaraq viran qoyduqları, xarabalıqlara çevirdikləri əraziləri Azərbaycanın ən qısa zamanda abadlaşdırması göz önündədir. Göz önündədir ki, ən qısa zaman kəsiyində Azərbaycan böyük, nəhəng layihələri reallaşdırıb. İşğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələrinin gerçəkləşdirilməsi, yolların salınması, hətta beynəlxalq hava limanlarının belə istifadəyə verilməsi, məktəb, bağça, xəstəxanaların tikilib istifadəyə verilməsi, müxtəlif təyinatlı obyektlərin, eləcə də yaşayış binalarının, şəxsi evlərin belə artıq vətəndaşların ixtiyarına verilməsi ən qısa zamanda görülən işlərdəndir və hər kəs bunun şahididir. Bunun BMT missiyası heyəti də şahidi olub, Qarabağa gələn hər kəs də. Deməli, ermənilərin, eləcə də ermənipərəstlərin hiyləgər oyunlarının heç bir mənası yoxdur, göz önündə olan reallıqlar qarşısında hər biri acizdir və etdikləri blef də faydasızdır, hansıki hər dəfə olduğu kimi, yekunda özlərinin faciəsi bahasına onlara başa gəlmiş olur.




**_İnam Hacıyev_**

# Öz torpağımızda yenidən məskunlaşırıq



**Bəlkə də sərlövhə qəribə təsir bağışlaya, "Qədin torpağın sakinləri öz torpağında yenidən necə məskunlaşar?" kimi sual ortaya çıxara bilər. Əslində belə bir sualın yaranması heç də təəccüblü deyil. Çünki bir millət xalq kimi formalaşdığı andan etibarən həm də ona məxsus olan torpaqlarda məskunlaşır. Və bəlli sərhədlər çərçivəsi onun məskunlaşma yeri olur. Lakin bəzən həyat elə davam edir ki, xalqın nümayəndələri məskun olduqları şəhər, rayon, qəsəbə və kəndlərdən uzaq düşməli, illərlə ata-baba yurdundan ayrı yaşamalı olurlar. Bu zaman məskunlaşma prosesi pozulur.**

Məskən saldığın yerin itirilməsinin nə demək olduğunu isə yalnız bunu yaşayanlar anlaya bilər. İllərlə yurdundan-yuvasından, evindən-eşiyindən, torpağından ayrı yaşayanlar bilər. Torpağının ətri burnunda qalanlar, qurban verdiklərinin hər birinin həsrətini çəkənlər bilər.

### Ümumdünya Məskunlaşma Günündə...

11 oktyabrın Ümumdünya Məskunlaşma Günü olması və BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") Assambleyasının Keniyada keçirilən 2-ci sessiyasında "Ümumdünya Məskunlaşma Günü"nün 2023-cü ildə Bakıda qeyd edilməsinə dair qərar qəbul olunması çərçivəsində bu mövzuya qayıtmalı olduq.

Qeyd edək ki, BMT-nin 1985-ci ildə qəbul edilmiş müvafiq qərarına əsasən Ümumdünya Məskunlaşma Günü hər il bir ölkədə qeyd olunmaqla hamı üçün əlçatan və keyfiyyətli şəhər həyatını təşviq edir, dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışların müzakirəsi üzrə qlobal platforma rolunu oynayır.

Məhz bu il-torpaqlarımızın işğaldan azad edilməsinin üçüncü ilində, Qarabağda və Şərqi Zəngəzurda bərpa işlərinin həyata keçirildiyi, yeni şəhər, qəsəbə və kəndlərin salınması, əhalinin bir qisminin doğma torpaqlarına-ev-eşiyinə köçürüldüyü bir zamanda Bakıda şəhər iqtisadiyyatı və şəhərlərin tərəqqi mərkəzləri rolu ilə bağlı məsələlərin müzakirəsinin keçirilməsi həm də dünyaya bir mesajdır. Çünki uzun illər ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinə, tarixi, mədəni və dini abidələrimizin, yüzlərlə sosial obyektlərin və yaşayış məskənlərinin dağıdılmasına, soydaşlarımızın məcburi köçkün kimi yaşamasına dünya susurdu.

### 30 il məskənindən ayrı

Bəli, 1990-cı ildən başlayaraq bir neçə il ərzində torpaqlarımızın bir qisminin Ermənistan tərəfindən işğal olunması minlərlə soydaşımızın ev-eşiksiz qalması ilə nəticələnmişdi. Minlərlə soydaşımız bir qərinəyə yaxın məcburi köçkün həyata yaşamağa məcbur edilmişdi.

İnsanlar illərlə qurduqları evlərini, həyətlərini, bağ-bağçalarını qoyub silahın burnunda zorla yurdundan didərgin salınmışdı. Daha sonra isə onların evlərinin qapı-pəncərələri, dam örtüyü sökülüb satılmış, mal-mülkləri qarət olunmuş, həyət-bacaları, evləri yandırılmışdır. Bütün bunlar dəfələrlə dövlətimizin başçısı tərəfindən ən mötəbər beynəlxalq tribunalardan səsləndirilmişdi. Lakin dünya səssiz qalmışdı.

Ermənilər işğal etdikləri torpaqlarımızda xalqımıza məxsus yeraltı və yerüstü sərvətləri talayıb dünya bazarına çıxarmış, torpaqlarımızı başdan-başa minalamışlar. Bütün bunlar isə dünyanın dəstəklədiyi məskunlaşma prosesinə zidd olan məsələlər idi. Ona görə ki, bir tərəfdən insanlar yurdunu itirmişdi, bir tərəfdən də onların həmin torpaqlara qayıdarkən olmazın çətinliyi ilə qarşılaşmaları üçün düşmən əlindən gələni etmişdi.

Qarabağda və Şərqi Zəngəzurda daş daş üstündə qalmamışdı. Ağdam Qafqazın Xirosimasına çevrilmiş, ağ saraylı evlər yandırılaraq qara rəngə boyanmışdı. Bəzi şəhər və qəsəbələrimiz o qədər dağıdılmışdı ki, Azərbaycan ordusu həmin yerləri işğaldan azad etdikdən sonra bayrağı sancmağa bir yer tapa bilmirdi.

Bütün şəhər, qəsəbə və kəndlər bir qəbiristanlıq görünüşündə idi. Bu yandırılmış, dağıdılmış, uçurulmuş, talanmış, qarət olunmuş məskənlərin əvvəlki halına gətirilməsi əlbəttə ki, zaman tələb edəcəkdi. Çünki ilk növbədə, bu məskənlər-torpaqlar minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirilməli idi.



Düşmən bilirdi ki, bu torpaqların sahibi bir gün onları geri alacaq. Ona görə də nə bacarmışsa, o qədər dağıtmış, talamışdı.

### Məskənsiz qalmaq acısı

Dünyada məskunlaşmaqdan çətin iş yoxdur, desəm, yanılmaram. Çünki ev tikmək, bağ-bağat salmaq bir insanın ömrünə sığmır. Bir həyətin həyət halına gəlməsi üçün bir ömür kifayət etmir. Biz qururuq, övladlarımız davam edir, nəvə-nəticələrimiz çalışır ki, yurd yurdluqdan çıxmasın, dağılmasın, viran olmasın. Beləliklə də yurd salmaq, yəni məskunlaşmaq elə də asan məsələ deyil.

Təəssüf olsun ki, bunu bir alin yazisi kimi yaşamalı olduq. Məskənimizdən zorla qovulduq. Məskənimiz göyə sovruldu. İllərlə əllərimizlə qurduqlarımız, min bir əziyyətlə yaratdıqlarımız düşmənin acı tamahının qurbanı oldu. Soydaşlarımız köçkünlük həyatına başlayandan bir neçə il sonra da əllərinin qabarı hələ getməmişdi. Hələ üstəlik bu qədər zəhmətin fonunda ürəyin qubar bağlaması isə daha dözülməz idi. O qubar ki, məcburi köçkünlərimizdən dünyasını dəyişən minlərlə insan yurdunu, torpağını bir daha görə bilməyərək həyatla vidalaşdı. O qubar ki, "torpaq, yurd" deyə-deyə minlərlə soydaşımız yurdundan kənarda illərlə yaşamalı oldu. O qubar ki, yüzlərlə vətəndaşımızın arzularını gözündə qoydu. Tikdiyi ev-eşiyində, həyət-bacasında övladı üçün qurduğu arzuları yarımçıq qaldı.

Onlar düz 30 il köçkün kimi yaşadılar. Dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunsalar da, bu, yaralarına məlhəm ola bilmirdi. Çünki öz məskənləri, öz yurdları yox idi. Vətən bir olsa da, özgə yurdda idilər. İllərin zəhməti, arzusu, xəyalları əllərindən alınmışdı. Əzizlərinin qəbirləri o yurdlarda qalmışdı. Xatirələri o torpaqlara gömülmüşdü.

Bir qarış torpaq uğrunda müharibələr zamanla bizim soydaşlarımız kimi, bu acını milyonlarla insana yaşadıb. Lakin bu acılar tamahlara "dur" deyə bilməyib. Özününkü olanla qənaətlənməyi öyrədə bilməyib. Övlad itkisi yaşanıb, qan tökülüb, lakin qəddar ürəklərə bu, əsla təsir gücündə olmayıb. Bizim qonşuluqdan kənar qonşumuz kimi-ermənilərin tamahı, daş ürəkləri kimi...







### Yenidən məskunlaşırıq

Haqq nazilər, lakin üzülməz, deyib atalarımız. Haqq, bəli nazilmişdi. Bütün dünyanın susması qarşısında bizim haqq səsimizi sükut mişarlamaqda idi. Lakin mişarın gücü bu haqqı üzə bilmədi.

2020-ci ilin 44 günlük Vətən müharibəsində ədalət qalib gəldi. Azərbaycan xalqı Ermənistan üzərində Zəfər çaldı. Torpaqlarımız müzəffər sərkərdəmizin rəhbərliyi ilə milli ordumuz tərəfindən azad edildi. Biz bu Zəfərlə həm illərdən bəri çiyinlərimizdə ağır yük olan namus, şərəf məsələsini həll etdik, həm də minlərlə soydaşımızın yurduna qayıtmaq arzusunu reallaşdırdıq.

Zəfər nə demək idi? Zəfər məcburi köçkünlərin yaxın gələcəkdə yenidən öz yurdlarında məskunlaşa bilməsi demək idi. Zəfər Qarabağın və Şərqi Zəngəzurun doğma anasına-Azərbaycana qovuşması və yenidən qurulacağı, yeni həyata qədəm qoyacağı demək idi. Müharibə bitdi. Dünyanın əksər ölkələrindən azad torpaqlarımıza gələnlər, ermənilərin yurdlarımıza tutduğu sitəmi öz gözləri ilə görənlər oldu. Sonda haqqın kimin tərəfində olması dünyaya məlum oldu.

Müharibə hələ bitməmişdi, artıq azad edilən torpaqlarda elertrik xətlərinin çəkilməsinə, yolların abadlaşdırılmasına başlanmışdı. Çox çəkmədi ki, bütün Qarabağ və Şərqi Zəngəzur tikinti meydanına çevrildi. Gündən- günə yurdlarımıza həyat verildi. Bu gün də azad edilmiş torpaqlarımızda bərpa işləri sürətlə həyata keçirilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"na əsasən mərhələli şəkildə görülən işlər azad edilmiş torpaqlarımıza yeni nəfəs verir.

Məcburi köçkünlərin artıq yurdlarına qayıdışı başlayıb. Ötən ilin iyul ayından Laçın və Füzuli şəhərləri və Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri artıq qoynunu sakinlərinə açıb, onları qarşılayıb.

Qayıdış mərhələli şəkildə həyata keçirilir. Şəhər, qəsəbə, kəndlərimiz müasir şəkildə qurulur, insanların əvvəlkindən də gözəl şəraitdə yaşaması üçün işlər görülür, daha sonra onlar köçürülür.

Ərazilərimizin böyük qisminin minalanması və minalanmış ərazilərin xəritələrinin düşmən tərəfindən verilməməsi qayıdışı bir qədər ləngidir. Lakin bəlli ərazilərin minadan təmizlənməsi sürətlə həyata keçirilir. Təmizlənən ərazilər isə bərpa olunur, yenidən qurulur, sakinlərinə verilir. Beləliklə biz öz torpaqlarımızda yenidən məskunlaşırıq. Bu məskunlaşmanı isə bütün dünya izləyir. Biz yeni, müasir şəhərlər, qəsəbələr, kəndlər salırıq.

Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı (UN-HABİTAT) ilə əməkdaşlığa başlaması, ötən ildən bəri Milli Şəhərsalma forumlarının təşkil olunması təqdirəlayiqdir. Ona görə ki, dünyaya həm şəhərsalmanı, həm də öz torpağında yenidən məskunlaşmanı nə qədər yüksək səviyyədə həyata keçirdiyimizi göstərə bilirik.

***Mətanət Məmmədova***

# Atalar və oğullar:

## Aradakı soyuq divarların səbəbi nədir?



Bir uşağın həyatında ana qədər atanın da böyük rolu var. Bəziləri düşünür ki, övladların tərbiyəsində atanın elə də rolu yoxdur. Lakin uşağın formalaşması üçün sərf edilən əməyin 50 faizi anaya düşürsə, 50 faiz də atanın payınadır. Ata obrazı ailəni qoruyan, bütün hallarda çalışan və uşaqların gələcək həyatı ilə bağlı narahat olan obrazdır. Təbii ki, bu, bütün atalara aid deyil. Bu gün kifayət qədər övladlarından xəbəri olmayan, onların problemləri ilə maraqlanmayan və onlara sevgisiz yanaşan atalar var. Fransada aparılan bir araşdırma nəticəsində məlum olub ki, atalar uşaqlarına gün ərzində orta hesabla 12 dəqiqədən az vaxt sərf edirlər. Buna səbəb də onların daim işdə olmasıdır.





ARAŞDIRMA

### Günümüzdə bir çox ata-oğullar ünsiyyət qura bilmirlər. Bəs, ata-oğul münasibəti arasındakı bu soyuq divarlar nədən qaynaqlanır?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Mütəxəssislər söyləyir ki, uşaqlarla analar mübahisə etdikdə daha tez barışa bilirlər. Lakin atalarla bu belə deyil. Əsasən də, oğlan uşaqları yeniyetməlik dövründə ataları ilə mübahisə etdikdə, onunla gec barışır. Onlar söyləyir ki, bu atanın övladlarına çox zaman sərf etmədiyindən irəli gəlir. Atalar daim işdə olur və bir çox hallarda evə gəldikdə uşaqlar barədə onların özündən yox, analarından maraqlanırlar.

Gəlin ilk olaraq bir sıra nümunələrə nəzər salaq.

Tanıdığım bir ailə var. Atanın da üç qızı və çox sevdiyi bir oğlu. Ata çox soyuq xarakterdə biridir, əsla hisslərini övladlarına bildirməz. Lakin buna baxmayaraq hər kəs onun oğlunu qızlarından ayırıb başqa bir yerə qoyaraq sevdiyini çox yaxşı bilir. Oğlu nə etsə belə ata onu səssizcə sevməyə davam edir. Bu ata-oğulun söhbətləri uşaqlıqdan bu yana heç vaxt üst-üstə düşməyib. Həmişə əks mövqedə olublar. Nə zaman ortaq məxrəcə gəlib danışmaq istəsələr də mütləq sonu mübahisə ilə bitib. Bir çox tanışları oğula məsləhət görür ki, atandır, onunla dərdləş, danış, ürəyindəkiləri söylə. Oğul isə cavabında, o məni heç vaxt anlamaz, o övladı ilə dost olmağı bacarmır, o başqalarının ataları kimi anlayışlı deyil deyir. Çünki bu ata oğlunu nə qədər çox sevirsə, ona qarşı bir o qədər divarlar hörüb və sevgisini biruzə vermir. Oğul da sanır ki, atası onu heç vaxt sevməyib. Hər kəs ona söyləyir ki, atandır, o da hisslərini belə ifadə edir, dilinə alıb söyləyə bilmir, bacarmır. Lakin oğul bu deyilənləri əsla anlamır. O deyir ki, mən atamla problemimi heç vaxt paylaşa bilmirəm, çünki onun gözündə hər zaman günahkar mövqedə olan mənəm. Anlamadan-dinləmədən məni mühakimə edir.

Daha bir ailənin anası isə söyləyir ki, oğlumla yoldaşım bir-birindən çox utanır. Hətta hər ikisi axşam işdən gəldikdə demək olar ki, bir kəlmə belə danışmırlar. Bir-birini çox sevirlər, bunu bilirəm. Amma aralarındakı bu qalın divarları anlaya bilmirəm. Bəzən olur ki, işlə bağlı bir-birindən uzun müddət ayrı qalırlar. Üzbəüz gələndə isə utana-utana öpüşüb-görüşürlər. Onlar heç vaxt dost kimi olmayıb. Oğlumun nəyə ehtiyacı olubsa, hər zaman mənə söyləyib. Çünki atasına bunu deməkdən daim çəkinib.



Eyni ailənin atasına övladına qarşı niyə belə soyuq olduğunu soruşduqda isə, o, mənim canımdan bir parçadır və ona qarşı məsafəli olmağım oğlumu az sevdiyim, yaxud sevmədiyim anlamına gəlməz deyib. Ata deyir ki, bacarmıram, bu da mənim sevgi dilimdir. Biz ataanamızdan belə görmüşük. Onlar daim deyirdilər ki, uşağa çox üz verməmək olmaz, əks halda başına çıxar. Ona görə də oğlumla uşaqlıqdan pərdəli olmuşam. Ama onu çox sevirəm. Bunu ata övladını sevmir kimi başa düşmək doğru deyil, sadəcə sevgisini göstərmək hər kişiyə xas bir xüsusiyyət deyil.

Ata-oğul arasındakı problemin əsas səbəblərindən biri də "Bizim vaxtımızda belə deyildi" ifadəsidir. Belə ki, atalar oğullarından öz dövründəki kimi yaşamağı tələb edir. Çünki o, həmin dövrün insanıdır və övladının da öz yaşadığı kimi yaşamağını istəyir. Valideynlər öz yetkinlik dönəmində edə bilmədiklərini övladlarının da etməsinə icazə vermir. Oğul da buna qarşı çıxdıqda ciddi problemlər yaranır.

### Əvvəllər ata-oğul münasibətləri necə idi?

Mütəxəssislər söyləyir ki, 40-50 il bundan əvvələ indiki ata-oğul münasibətləri arasında ciddi fərqlər var. Belə ki, əvvəllər ata evə girərkən bütün övladları hörmət əlaməti olaraq ayağa qalxar onu salamlayardı. İndi isə ata gəldikdə gənclər heç otağından belə çıxmır, nəinki salamlaşmaq.

Bir insanın tam şəkildə formalaşması üçün yalnız ana deyil, ata sevgisi və dəstəyi də olmalıdır. Lakin bu atanın övladına soyuq divarlar hörməsi ilə mümkün deyil. Övlad atanın dəstəyini sözlər və davranışlarla ürəkdən hiss etməlidir. Bu, əsasən də, oğlan uşaqlarına aiddir. Çünki bir ata oğlan uşaqları üçün modeldir. O nə edirsə, oğlu da onu təqlid etməyə çalışır.

Bəzi kişilərin öz ataları ilə yaxın münasibəti olmayıb. Elə sırf bu səbəbdən də oğullarına qarşı soyuqdurlar. Belə atalar övladları ilə normal söhbət etməyi də bir çox hallarda bacarmırlar. Lakin elə atalar da var ki, buna baxmayaraq oğulları ilə çox səmimi bir dostdur. Onlar deyir ki, "Atam mənlə dost olmayıb, həmişə soyuq olub. Qoy mən öz oğluma bunu yaşatmayım və ona bolca sevgimi verim".

### Dünyada bu barədə vəziyyət necədir?

Afrika mədəniyyətdə atalar uşaqları ilə oynamır. Qorxurlar ki, bu onları nüfuzdan salar. Buna görə də övladları ilə zaman keçirmək və əylənmək onlar üçün çox çətindir.

Atanın oğlu ilə oyun oynaması və zaman keçirməsi bir səbəbə görə də vacibdir. Mişel Fiz adlı tədqiqatçı deyir ki, oğlan uşağı oyun zamanı atası ilə daha yaxşı söhbət edir. Bu zaman ata həm sözləri, həm də hərəkətləri ilə oğluna olan sevgisini ifadə edə bilər. Bununla ata oğluna da hisslərini ifadə etməyi öyrədir.

Atalar övladları ilə birbaşa münasibətə girməlidir. Bunun üçün ananı arada qoymaq lazım deyil.

***Ayşən Vəli***



# Zamana qalib gələn LİDER

## Dahi Öndər Heydər Əliyev ideyaları və əsasını qoyduğu siyasət xalqımıza qələbələr bəxş edir

Birmənalı şəkildə qeyd etmək olar ki, bugünkü güclü və qüdrətli Azərbaycanın bünövrəsi Dahi Öndərimiz Heydər Əliyevin birinci dəfə Azərbaycanda hakimiyyətdə olduğu dövrdə qoyulub. O zamana qədər respublikamız bütün sahələrdə geridə qalan, inkişafı üçün heç bir perspektivi olmayan respublika idi. Məhz Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının rəhbəri seçildikdən sonra köklü dəyişikliklərə nail olundu, fundamental islahatlar nəticəsində əhalinin sosial vəziyyəti yaxşılaşdı, respublikamız sayılan və seçilən respublikaya çevrildi. Təkcə bir faktı vurğulamaq lazımdır ki, 1969-1982-ci illərdə milli gəlir 2,6, sənaye məhsulu 2,7, kənd təsərrüfatı 2,3 dəfə artdı, 249 yeni iri sənaye müəssisəsi yaradıldı. Ölkənin sənaye potensialı əvvəlki 50 ildəkini iki dəfə üstələdi. Həmin dövrdə 813 min yeni iş yeri açıldı, əhalinin güzəranı qat-qat yaxşılaşdı. Respublikamızın elmi-texniki potensialı dəfələrlə artdı, 265 elmlər doktoru, 3141 elmlər namizədi hazırlandı. Ötən əsrin 80-ci illərinin əvvəllərində ən nüfuzlu ali məktəblərə respublikamızdan göndərilən gənclərin sayı ildə 1000-1400 nəfər təşkil edirdi. Hər il 800-1000 azərbaycanlı gənc isə ittifaqın nüfuzlu hərbi məktəblərində hərb sənətinin sirlərinə yiyələnirdi. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli Lider Heydər Əliyev çox sonralar - 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: ”Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər”.

### Yeni, müstəqil Azərbaycan uğrunda

Təəssüflər olsun ki, Ulu Öndər Heydər Əliyevin qurub, yaratdıqlarını Onun Moskvaya ittifaq rəhbərliyinə getməsindən sonra dağıdıldı. 1991-1993-cü illərdə Azərbaycanın vəziyyəti daha da ağırlaşdı. O dövrdə müstəqillik yollarında ilk addımlarını atan Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkədaxili vəziyyətin idarə olunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkədaxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Ancaq aydın təfəkkürlü ziyalılar, böyük xalq kütləri vətəndaş müharibəsindən qaçmağın və ölkənin düşdüyü böhrandan çıxarması yolunu Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsində gördülər. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının imzaladığı müraciətdə deyilirdi: ”Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir”.Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi: ”Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər”.

Nəticə etibarilə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır. Ulu Öndərin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

### 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan, haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, ”mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun”. 1994-cü il sentyabrın 20-də ”Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğu nu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı.

1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələr də mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. 2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda Dünya azərbaycanlılarının I qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: ”Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı”..

Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti, diplomatik bacarığı sayəsində 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımız düşmən əsarətindən azad edildi. 19 sentyabr 2023-cü il də başlayan 23 saat 44 dəqiqəlik antiterror əməliyyatları ilə Xankəndi daxil olmaqla, digər ərazilərimiz üzərində suverenliyimiz bərpa olundu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: ”Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”. Bu fikirləri ilə Prezident İlham Əliev Dahi Öndərin ”torpaqlarımızın işağldan azad edilməsi” vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir.

**İ.ƏLİYEV**

# Ermənistanın Qərbi Azərbaycana çevrilməsi mümkünlüyü

*Maksim Şevçenkodan diqqətçəkən proqnozlar*



Ermənistan parlamentinin Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma statutunu ratifikasiya etməsi Kremldə İrəvanın açıq-aşkar Rusiyaya qarşı xəyanətkarlıq mövqeyi tutması kimi qiymətləndirilib. Diqqətçəkən məsələ həm də budur ki, yalnız Rusiya hakimiyyətinin dəstəkçiləri deyil, həm də digər müxtəlif məsələlərdə müxaliflik mövqeyindən çıxış edən siyasi ekspertlər də bənzər mövqeləri bölüşürlər. Rusiyanın Ukraynaya hərbi müdaxiləsini birmənalı şəkildə dəstəkləməkdən imtina edən və bəzi məsələlərdə Kremlin siyasətinə qarşı narazılığını bildirən rusiyalı müxalifyönlü jurnalist, tanınmış ictimai-siyasi xadim və publisist Maksim Şevçenko Ermənistan parlamentinin Roma statutunu təsdiqləməsinin mümkün nəticələri barədə maraqlı nüansları dilə gətirib.

Eyni zamanda, dünyada mövcud olan və cərəyan edən münasibətlər sistemində və qanun-qaydalarda dərin dəyişikliklərin baş verdiyinə əminliyini bildirən məşhur analitik, Roma statutu barədə Ermənistan parlamentinin çıxardığı müsbət qərarın bu ölkə üçün neqativ nəticələrə səbəb olacağını istisna etməyib.

### "Haaqa məhkəməsinin orderinin Ermənistan ərazisində etibarlı sayılması, Ermənistanı qlobal münaqişəyə sürükləyə bilər"

"Baş verənlər dünyadakı münasibətlər sisteminin tamamilə sındırılmasıdır. Bu və ya digər dövlətlərin parlamentlərinin qərarları geriyə dönüşü mümkünsüz edə bilər. Haaqa məhkəməsinin orderinin Ermənistan ərazisində etibarlı sayılması, Ermənistanı qlobal münaqişəyə sürükləyə bilər", - Şevçenko deyib. Azərbaycanla münaqişənin artıq suveren dövlət kimi Ermənistanın mövcudluğunu sual altına qoyduğunu qeyd edən analitik bildirib ki, bu məsələ Ermənistanın adının "Qərbi Azərbaycan" və ya "İrəvan xanlığı" adına dəyişdirilməsi ilə nəticələnə bilərdi.

### "Onlar doğrudanmı düşünürlər ki, Türkiyə və Rusiya buna dözəcək?"

Onun sözlərinə görə, Ermənistan parlamentinin qərarı hansısa beynəlxalq hüquqi sənədin qəbulu yox, Avropa İttifaqının (Aİ) vassallığını qəbul etmək barədə anddır. Aİ-nın beynəlxalq arenada öz maraqlarını müdafiə etmək üçün kiçik müttəfiqlər axtardığını deyən rusiyalı publisist, Ermənistanın rastlaşa biləcəyi riskləri diqqətə çatdırıb. "Aİ indi Qafqaza daxil olur. Onlar doğrudanmı düşünürlər ki, Türkiyə və Rusiya buna dözəcək? Ermənilər, belə yanaşma ilə, ola bilsin ki, sizə Azərbaycanın və ya Osmanlı imperiyasının bir hissəsi olmaq lazım gələcək" - Şevçenko deyib.

"Yəni, Ermənistan özünün Roma statutu ilə İranamı söykənəcək?"

Rusiyalı ekspert bu minvalla Ermənistanın beynəlxalq aləmdə gedən oyunlarda "xırda pul"a çevriləcəyi riskini də istisna etməyib. "Yəni Ermənistan özünün Roma statutu ilə İranamı söykənəcək? İran mollalarına? Həmin mollalara ki, maraqları necə tələb edirsə, özlərinin Moskvadakı, Ankaradakı və ya Qərbdəki tərəfdaşları ilə Ermənistanın hesabına sövdələşmə aparacaqlar?", - Şevçenko sual edib.

Əslində, məşhur rusiyalı jurnalist və ictimai-siyasi xadim Maksim Şevçenkonun qoyduğu suallar ritorikdir. Amma bu suallar, ilk növbədə, son bir neçə əsrdə, hətta elə indinin özündə də erməniçilik ideoloqlarından daha çox erməni olmağa çalışan rusiyalı siyasətçilərə, siyasətbazlara, bəzi deputatlara, məmurlara, jurnalistlərə və aparıcılara, habelə "ictimai-siyasi" xadimlərə ünvanlanmalıdır. Daha doğrusu, hansı səbəbdən Rusiyanın dövlət mənafeyini və geosiyasi maraqlarını erməniçilik ideoloqlarının girovuna çevirdikləri barədə onlardan çox sərt hesabat tələb olunmalıdır. Bu siyahıda birinci yerdə Rusiyanın dövlət telekanalında öz verilişini erməniəsilli "rusiyalı" ekspertlərin meydançasına çevirən teleaparıcı Vladimir Solovyov və Rusiya parlamentinin uzunömürlü deputatı Konstantin Zatulin dayanırlar.

**Afət Tahirqızı**



**Vəli Vəliyev**

# Erməni iştahası

***Kobud, qanmaz, qaba adamlar əksər hallarda bir adla çağırılır - eşşək. Bəzilərinin hətta ləqəbi də bu zəhmətkeş heyvanın adına uyğunlaşdırılır. Bu dördayaqlının bir örnəyi, yaxşı xüsusiyyəti var ki, bu da ikinci dəfə eyni yerdə palçığa batmasıdır. Yəni bu məxluqat qanır ki, o yerdən bir daha keçmək olmaz, yenə batar, sahibi də adəti üzrə qulağından yapışıb başına zopa yağdırar. Yox, mən sizə eşşəyin xarakterik-xüsusiyyətləri barədə mühazirə oxumaq istəmirəm. Amma eşşəyi ermənilərlə müqayisə etmək niyyətimi gizlətmirəm.***

Ermənilərin Cənubi Qafqaza gəldikləri, yaxud gətirildikləri gündən indiyədək bizimlə niyə düşmənçilik etdiklərinin əsl səbəbini bilmirəm. Bizi düşmən kimi qələmə verməkdə bunların məqsədi nədir. Biri var, nə vaxtsa erməniləri qul kimi, heyvan kimi plantasiyalarda işlədək, çörəkdən, sudan məhrum edək, istədiyimiz vaxt zopanın altına salıb başını, gözünü əzək, onda ermənilərin indiki münasibətini başa düşmək olar. Bəziləri deyə bilər ki, bəs "qondarma soyqırımı"nı niyə demirsən. Bu düşmənçiliyin kökü 1915-ci ildən də xeyli əvvələ gedib çıxır, Səhl Sumbat-Babək məsələsi. Ermənilər tarixdə olmayan hadisələri uydurmaqla bizimlə daim düşmənçilik ediblər. Bu da sualın cavabı deyil. Ermənilər Cənubi Qafqaza, daha dəqiq desək Azərbaycan torpaqlarına İrandan, Suriyadan, Livandan hələ I Pyotrun dövründən başlayaraq "əyalətin ən etibarlı rəiyyəti" adı ilə köçürülüblər. Bunu anladıq, görünür bizimlə düşmənçiliyin səbəbini artıq özləri də dəqiq bilmirlər.

Haqsız hərəkətləri, qanunsuz əməlləri onlara həmişə baha başa gəlib. Türkiyə ərazisində hələ Osmanlı dönəmində ən yüksən vəzifələrdə çalışıblar, Sultanın sarayına qədər yerləşiblər, sonunda yenə xəyanət ediblər. Birinci dünya savaşı zamanı yaşadıqları ölkəyə xəyanət edərək erməniləri silahlandıraraq üsyana qalxıblar. Təbii, üsyanlar bütün ölkələrdə demək olar ki, eyni üsullarla yatırılıb. Amma Osmanlı-Türkiyə fərqli hərəkət edib. Yerli erməniləri qorumaq, üsyançıların əlində alətə çevrilməmələri üçün döyüş bölgələrindən köçürülüblər. Bu yaxşılığı da ermənilər tərs başa düşüb, bunu qondarma "soyqırımı dillərində əzbər ediblər.

Qarabağımızı bizdən qoparmaq istədilər, silahlı müharibəyə qalxdılar. Onlara "ağaları" həmişə olduğu kimi lazımi dəstəyi verdilər. Amma bundan o tərəfini edə bilmədilər, yəni əməllərini hüquqi çərçivəyə sığışdıra, yəni sənədləşdirə bilmədilər. 30 il torpaqlarımız işğalda qaldı, azərbaycanlılar öz mülklərini, var dövlətini, ən əsası isə yaxınlarını itirdilər. 30 il ermənilərə heyvani instikdən pəs etməyi məsləhət gördük, onlarla insan dilində danışmaq istədik, beynəlxalq hüququn imkanlarını anlatdıq, amma qabalıq, kobudluq və nəhayət eşşəklik xüsusiyyətləri imkan vermədi ki, bütövlüyü görə bilsinlər. Sonunda "dəmir yumruq" işə düşdü, onları ola biləcəkləri yerə qovduq. Məqsədimiz öldürmək yox, yaşatmaq oldu. Amma...

Bu gün yenə ağalarının qapısında sülənirlər. Separatçıların təhriki ilə, zorla evlərindən çıxarılan və Ermənistana köç etməyə məcbur edilən ermənilərin indiki halının da günahını bizdə görür, buna bir don geydirirlər. Əslində ermənilər üçün bu hal daha münasibdir, yəni problemlər, məhrumiyyətlər, ağlaşma, sızlama ermənilərin həyat tərzidir də deyə bilərik. Onlar bu şəraitdə yaşamağa alışıblar. Məsələn, Qarabağdan erməniləri zorla Ermənistana köçürüblər, indi də onların geri qayıtması üçün beynəlxalq güclərə minnətçi düşüblər. İndi bu milləti - erməniləri eşşəklə bir tutmayasan, nə edəsən? Türkiyədən üsyan edib qaçdılar, sonra bir qismi yalvarıb geri qayıtdılar. Hələ Türkiyəni düşmən elan edən indiki Ermənistandan yüz minlərlə erməninin bu ölkəyə bir tikə çörək üçün sığındığını demirik. Bax, budur erməni, budur insanlığa ləkə millət, budur eşşək olmaq nümunəsi.

Bu günlərdə erməni mətbuatında bu qeydlərimizin davamını gətirəcək bir fakt rastımıza çıxdı. Sən demə "Qardman-Şirvan-Naxçıvan" adlı ümumerməni birliyi varmış. Bu "birlik" dünya birliyinə müraciət edir ki, guya ermənilər Qrabağdan zorla qovulub, onların öz evlərinə qayıtmaları üçün beynəlxalq təminat versinlər. Təkcə Qarabağa yox, Şirvana və Naxçıvana da. Belə yerdə deyirlər, iştahan yaman gəlib.

# "Prezident 30 il sonra Füzuliyə həyat qaytarır"




"Qarabağ və Şərqi Zəngəzur işğalda olan zaman Prezident İlham Əliyev Azərbaycan xalqına dəfələrlə müraciət edərək və keçmiş köçkünlərlə görüşlər əsnasında bildirirdi ki, "nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməliyik və hətta əgər lazım olsa, biz güc tətbiq etməklə öz torpaqlarımızı geri qaytaracağıq". Beləliklə, İkinci Qarabağ müharibəsində Zəfərlə işğala son qoyuldu". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, müharibə başa çatdıqdan cəmi 8 gün sonra Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə Qarabağ və Şərqi Zəngəzura səfər edən cənab İlham Əliyev Azərbaycan tarixinin ən böyük Zəfərinin ardınca tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi: "İntensiv formada davam edən bütün işlər Azərbaycan öz imkanları hesabına həyata keçirilir və bütün dünya bir daha görür ki, cənab İlham Əliyev necə qüdrətli bir dövlət qurub. İşğala son qoyulmasından cəmi 3 il keçir, amma artıq bölgədə iki beynəlxalq hava limanı uçuşları qəbul edir, yaxın iki il ərzində isə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurda, o cümlədən də Füzulidə artıq həyat qaynamağa başlayıb".

Bəhruz Məhərrəmov sözlərinə belə davam edib: "Bildiyiniz kimi, Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur, möhtərəm Prezidentin özünün açıqladığı rəqəmə əsasən, Füzulidə yüz mindən çox mina basdırılıb. Buna baxmayaraq birinci infrastruktur layihələri məhz Füzulidə başlamış, bir tərəfdən təhlükəsiz və ləyaqətli qayıdışın təmin olunması üçün ərazilərin minalardan təmizlənməsi həyata keçirilmiş, paralel şəkildə də Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanmağa başlanmışdı. İşğal dövründə Ermənistan Füzulini qapalı zonaya çevirmişdi, bölgəyə heç bir beynəlxalq qurum buraxılmırdı, çünki burada törədilən vəhşiliyin ifşa edilməsini istəmirdilər. Cənab Prezidentin özünün də dəfələrlə ən ali tribunalardan bəyan etdiyi kimi, "Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq".

Həqiqətən də, müharibədən cəmi iki il yarım sonra artıq Füzuliyə həyat qayıtmaqdadır. Bir zaman ruhlar şəhəri olan Füzulidən artıq məktəb zənginin səsi, uşaqların şən səsləri gəlir. Bir sözlə, möhtərəm cənab Prezident 30 il sonra Füzuliyə həyat qaytarır, Füzuli dirçəlir və müasir Avropa şəhərinə çevrilir. Daha 22 ailə - 59 insanın öz Müzəffər Liderinə minnətdarlıq hissi ilə doğma Füzuliyə geri dönməsi də bu prosesin tərkib hissəsidir. Bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsinin təsis olunması ilə ərazi bütövlüyümüz, sentyabrın 19-da isə suverenliyimizin tam bərpa edilməsinin ardınca indi də Qarabağ və Şərqi Zəngəzurda ləyaqətli həyat, buranın əzəli sakinlərinin, əsl sahiblərinin köçü ilə əbədi formada bərpa olunur".

**Ayşən Vəli**

# Siyasi riyakarlıq və KVAZİFORMAL YANAŞMA

Ermənistanın maraqlarına xidmət edən, haqlı olmadıqları halda ermənilərin qondarma, dırnaqarası "haqlarını" guya müdafiə etməyə çalışan və bunun üçün də çox absurd şəkildə Azərbaycana qarşı qərəzli mövqe tutan bəzi avropalı siyasətçilər bununla heç nə əldə edə bilmədiklərini və bundan sonra da heç nə əldə edə bilməyəcəklərini dərk etməlidirlər. Çünki Azərbaycanla dialoqda ultimatum dilindən istifadə etmək cəhdlərinin uğursuz olduğunun dəfələrlə şahidi olublar. "Bizimlə heç kim diktə və ultimatum dilində danışa bilməz!", - deyə Azərbaycan Prezidenti cənab İlham Əliyev sentyabrın 21-də xalqa müraciətində də bu barədə hər kəsə qətiyyətlə xəbərdarlıq edib. Bu xəbərdarlıqdan nəticə çıxara bilməyən Avropa Parlamenti özünü çox gülünc bir vəziyyətə salıb və tutduğu qərəzli mövqe, ikili standartlardan çıxış etməsi imicini zərbə altında qoyub.

Təəssüflər olsun ki, hələ də boş illüziyalarla ermənilərə, Ermənistana təsəlli verənlər, dəhşətli dərəcədə yanılaraq, Azərbaycanla münasibətdə tamamilə gülünc, qəbuledilməz dialoq, ultimatum yolunu seçənlər var. Məsələn, Avropa Parlamenti Avropa İttifaqını "Dağlıq Qarabağda baş verənlərə görə" Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə, o cümlədən, qanuna yenidən baxmağa çağıran hüquqi qüvvəyə malik olmayan qətnamə qəbul edib. Üstəlik, Azərbaycan qazının idxalından asılılığın azaldılması fonunda ölkəmizlə əməkdaşlıq şərtləri barədə də iddialar irəli sürülüb ki, bunlar həqiqətən də nəinki təəssüf, hətta təəccüb doğurur. Çünki Azərbaycan qazına ehtiyacı olanların bu şəkildə çıxış etmələri, həqiqətən də, gülməli və təəccüblüdür. Maraqlıdır, qarşıdan qış gəldiyi onların ağıllarına gəlməyib, yoxsa Azərbaycan qazının idxalından asılılığın azaldılması barədə çıxış edənlər qarşıdan gələn soyuq fəsillərdə hüquqi qüvvəyə malik olmayan, kağız üzərində qalacaq qətnamələrini yandırıb qızınmağı planlaşdırırlar? Hər halda Azərbaycan qazına ehtiyacı olan məhz onların özləridir və hansısa absurd fikirləri onları gülünc vəziyyətə qoyur.

Qəbul edilən qətnamə birmənalı olaraq, Azərbaycana qarşı ədalətsizlikdir. Avropa Parlamenti özünü elə aparır ki, elə bil rəsmi Bakının Qarabağ ermənilərinə dəfələrlə təhlükəsizlik zəmanəti verdiyini bilmir. Hətta Qarabağ ermənilərinin yaşadıqları yerləri şəxsi maşınları və onların gedişi üçün ayrılan avtomobillərlə öz istəkləri ilə tərk etdikləri zaman dinc və sakit şəkildə getdiklərini də, Azərbaycan ərazilərini tərk edən zaman azərbaycanlılar tərəfindən onlara su və yemək təklif edildiyini də, köç edən erməniləri daşıyan avtomibillərin bəzi hallarda yanacağa belə ehtiyacı olduğu zaman tərəfimizdən yanacaqla təmin olunduğu barədə də Avropa Parlamenti özünü bilməməzliyə vurur. Üstəlik, 30 il bundan əvvəl, ötən əsrin sonlarında azərbaycanlıların evlərindən silahlı basqınla qovulduğunu, başqasına məxsus əraziləri deyil, öz yurd-yuvalarını ermənilərin təhdidi ilə məcburi şəkildə tərk edən qocaların, qadınların, uşaqların namərdcəsinə ermənilər tərəfindən güllələnməsini, həmçinin Avropa Parlamenti bilmir. Bəlkə bütün dünyada insanlıq dramı olaraq qəbul edilən Xocalı faciəsi barədə, ölüm təhlükəsi ilə qarşılaşdıqları zaman qaçaraq canlarını qurtarmaq istəyən xocalıların vəhşicəsinə, amansızlıqla erməni cəlladları tərəfindən güllələnməsini, onların cəsədləri üzərində belə təhqiramiz hərəkətlər etdiklərini də bilmirlər Avropa Parlamentinin həmin o qətnamənin lehinə səs verən siyasiləri? Bilirlər, amma hələ də özünü bilməməzliyə qoyurlar. Lakin bütün dünya ictimaiyyəti bilir ki, Avropa Parlamenti ermənilərin bu cinayətkar hərəkətlərinə, barbarlığına, vəhşiliyinə elə həmin vəhşiliklər törədiləndə də göz yumub və indiyə qədər heç olmasa Ermənistan tərəfini qınayan da olsa bir qətnamə qəbul etməyib. İndi həmin o Avropa Parlamentinə nə düşüb ki, haqlı tələblərlə qanuni addımlar atan, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmayan hərəkətlərlə öz suveren hüquqlarından istifadə edərək, ərazi bütövlyünü, ərazilərinin təhlükəsizliyini təmin edən Azərbaycana qarşı haqsız və ədalətsiz şəkildə çıxış edir?




Bu zamana qədər sanki qış yuxusunda olan Avropa Parlamenti elə bil indi ayılıb və bir zaman "Qarabağ Ermənistandır və nöqtə" deyən, nəticədə də müharibənin qaçılmazlığı qənaətinə gəlməyə əsas yaradan erməni baş nazir Nikol Paşinyan sözügedən bu qurumun gözünə indi "sülhə sadiq" biri kimi görünüb. Bu, çox gülməlidir. Həqiqətən də, Avropa Parlamenti son zamanlara qədər yatmışdı ki, 44 günlük müharibə dönəmində Ermənistanın ölkəmizə məxsus olan böyük şəhərlərə, Gəncəyə, Bərdəyə, Mingəçevirə Paşinyanın göstərişi ilə raket zərbələri endirildiyini, bunun nəticəsində onlarla dinc sakinin həlak olduğunu görməyib? Görüb və sadalananlar barədə ərtaflı şəkildə də bilir. Lakin erməni təəssübkeşliyi, ikili standartlar siyasəti, ədalətsiz mövqeyi, Azərbaycana qarşı qərəzi bunu etiraf belə etməyə imkan vermir. Azərbaycan tərəfinin heç bir zaman dinc əhalini hədəfə almaması fonunda Ermənistan tərəfinin həmin şəhərləri bilərəkdən hədəfə aldığı barədə etirafları, bunu onların qürurla bəyan etməsi də Avropa Parlamenti üçün kifayət etmədimi ki, məsələ ilə bağlı real, doğru yanaşma sərgiləsin?

Görünür, Avropa Parlamentinin, yaxud da Avropa İttifaqının köməyi olmadan Azərbaycanın separatizmi məğlub edərək öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini Avropanın bəzi siyasətçiləri də, sözügedən qurum da tamamilə unudub. Yaxud, belə çıxır ki, müşahidə etdiklərinin məhz rəsmi Bakının qəti mövqeyi olduğunu, heç vaxt geri çəkilməyəcəyini dərk etməkdə Avropa Parlamenti çətinlik çəkir. Həmçinin onu da dərk etməkdə çətinlik çəkir ki, Fransa kimi hansısa ermənipərəst ölkə, yaxud Avropa Parlamenti kimi hansısa erməniрərəst beynəlxalq qurum Azərbaycanın iradəsinə təsir göstərə bilməyəcək. Əks halda, yəni dərk edilsəydi, Azərbaycana qarşı belə absurd şəkildə qərəzli mövqe sərgiləməz, sanksiya tələbi ilə çıxış etməz, ədalətsiz yanaşma ortaya qoymaz, ölkəmizlə ultimatum dili ilə danışmaq yolunu seçməzdi.

Maraqlıdır, Azərbaycan torpaqlarının ermənilər tərəfindən 30 ilə yaxın müddət ərzində işğal altında saxlanıldığı zaman, qanunsuz erməni silahlı dəstələrinin qeyd-şərtsiz ərazilərimizi tərk etməsi barədə BMT kimi bir mötəbər təşkilatın qətnamə qəbul etdiyi zaman, işğal faktı ilə əlaqədar məlum dörd qətnamə qəbul edildiyi vaxt Avropa Parlamenti niyə reaksiya belə vermədi? Birləşmiş Millətlər Təşkilatı kimi ən mötəbər beynəlxalq qurumun qətnaməsi məgər Avropa Parlamentinin qətnaməsindən hüquqi baxımdan zəif sənəd hesab olunurdu, yoxsa BMT-nin 4 qətnaməsi Avropa Parlamentinin 1 qətnaməsi qədər deyildi? Məlum 4 qətnaməyə məhəl qoymayan Avropa İttifaqından, yaxud ABŞ, Rusiya, Fransa kimi ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən Avropa Parlamenti özünün 1 qətnaməsi ilə indi nə tələb edir? Silahlı basqın etməklə, qətllər, soyqırımlar törətməklə bir milyondan çox azərbaycanlını öz yurd-yuvalarından məcburi şəkildə didərgin salan, onlara qaçqınlıq həyatı yaşadan Ermənistana 30 il ərzində sanksiya tətbiq olundu ki, indi humanizm qaydalarını, beynəlxalq hüququn norma və prinsplərini pozmayan, suveren hüquqları çərçivəsində hərəkət edən Azərbaycana qarşı Avropa Parlamenti sanksiya tətbiqi barədə tələblə çıxış edir? Əslində, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, ədalətin və qanunçuluğun bərpasına, təntənəsinə yalnız öz səyləri ilə, minlərlə azərbaycanlının həyatı bahasına nail olan Azərbaycana beynəlxalq təşkilatlar və eləcə də müvafiq qurumlar sanksiya barədə yox, minnətdar olmaları barədə düşünməli və belə bir qərar qəbul etməli idilər. Təəssüf ki, biz bunun əksini müşahidə edirik və erməniрərəstliyin fonunda ikili standartların davam etdiyinin şahidiyik.

Zor tətbiq edilərək, təhdid olunaraq, ölüm təhlükəsi ilə üz-üzə qoyularaq, ayaqyalın, başıaçıq şəkildə bir milyondan çox azərbaycanlını ermənilərin məcburi şəkildə didərgin saldıqlarına görə sanksiya tətbiqi barədə düşünməyənlər, indi sivil qaydada, təhlükəsiz şəkildə, hətta yardımlar belə edilərək, öz istəyi, ya da ağalarının buyruğu, tapşırığı ilə özlərinə aid olmayan ərazilərdən, bizim ərazilərimizdən köç edənlərə görə heç olmasa susaydılar. Azərbaycanlılara qarşı saysız hesabsız vəhşiliklər törədərək onları dədə-baba torpaqlarından didərgin salanlara qarşı eyni şəkildə davranmadığımızı heç olmasa görərək dinməyəydilər. İkili stndartlar siyasəti yürüdənlərin, ədalətsiz mövqe sərgiləyənlərin qiymət verməsi bizə lazım da deyil, amma heç olmasa onlar ədalətsiz, qərəzli mövqedən çıxış etməyəydilər. Azərbaycan tərəfi hələ də bəyan edir ki, dövlətimizin qanunlarına tabe olmağı qəbul edərək, məskunlaşdıqları yerlərə, bizim ərazilərimizə ermənilərin qayıtmasına qətiyyən maneçilik törədilməyəcək və onların ölkə vətəndaşlarımız kimi hüquqları, təhlükəsizlikləri təmin ediləcək, amma bunun Ermənistan tərəfindən bəyan edilməsini hələ də Avropa Parlamenti eşidə bilməz. Çünki Ermənistan rəhbərliyi həmin ərazilərdən bir zamanlar məcburi şəkildə qovulmuş yüz minlərlə azərbaycanlının öz evlərinə qayıtmasına qətiyyən razılıq verməyib. Heç Avropa İttifaqı və ya Avropa Parlamenti də rəsmi İrəvandan belə bir şey tələb etməyib və yüz minlərlə azərbaycanlının öz evlərinə qayıtmasına Ermənistanın niyə razılıq vermədiyini hələ də soruşan belə yoxdur, nəinki sanksiya tətbiqini tələb edən. Yerli media nümayəndələrinin belə, Avropa İttifaqının bitərəf tərəf hesab oluna biləcəyi ilə bağlı sual verdikdə, Şarl Mişel Azərbaycan qaçqınlarının və məcburi köçkünlərinin hüquqlarına məhəl qoymayaraq, diqqəti yalnız erməni tərəfinə yönəldirsə, deməli, ikili yanaşma, ədalətsiz mövqe göz önündədir. Avropanın ağız dolusu danışdığı dəyərlər bunlardırmı və indi Avropa Parlamenti hansı üzlə sanksiya tələbi ilə çıxış edir? Bütün bu sadalananların fonunda belə bir tələblə, sanksiya tələbi ilə çıxış etmək siyasi riyakarlıqdır.

Reallıqlar göz önündə olduğu zaman yardımçı platforma sayılan hansısa bir görüş təşkil edib qətnamə qəbul etmək məsələyə kvaziformal yanaşmadır. Bunun mənasız olduğu, heç bir mahiyyət belə kəsb etmədiyi, hansısa hüquqi qüvvəyə malik olmadığı artıq bəllidir. Təsadüfi deyil ki, öz erməniрərəstliyi ilə seçilən və haylara dırnaqarası "sədaqətini" göstərmək istəyən Makron özü belə Azərbaycana qarşı sanksiyaların əks-məhsuldar olacağını bildirib. Erməniрərəst deputat Marina Kalyurandın təşəbbüsü ilə Bakıya qarşı sanksiyaları tövsiyə edən qətnamənin qəbul edilməsi Avropa Parlamentinin elə kvaziformal yanaşma sərgilədiyini təsdiqləyir. BMT missiyasının Azərbaycanın Qarabağ iqtisadi rayonuna səfərinin nəticələri də, heyət üzvlərinin orada gördükləri də, yəni Azərbaycanın qanundan kənar heç bir addım atmadığının şahidi olmaları da, əksinə, humanizm prinsiplərini əsas götürdüyünü görüb şahidi olması da Avropa Parlamenti üçün mahiyyət kəsb etməz sayılırsa, hansısa erməni uydurması əsas hesab olunursa, deməli, bu qurumun özü barədə ən azından müvafiq tələblə çıxış edilməlidir və barəsində Avropa İttifaqının müvafiq, uyğun qərar verməsi gərəkir. Anti-Azərbaycan intriqasına zəmin hazırlamaq niyyəti ilə sanksiya tələb edən qətnaməni qəbul etmək blefdir, çünki heç bir əsası olmadan qəbul ediləndir.

"Ermənistana gəlincə, mən həmrəyliyimi bildirirəm və görəsən, biz bu ölkəni Azərbaycanla enerji sövdələşməsinin qurbanagəhında qurban vermək niyyətindəyikmi? Biz zaman-zaman cəsarət göstərməliyik. Biz hamımız Ermənistanı və Dağlıq Qarabağ ermənilərini dəstəkləməliyik. Onlar özlərinə məxsus olan torpaqları tərk etməyə məcbur olublar. Əgər bu etnik təmizləmə deyilsə, nə olduğunu bilmirəm", deyən Fransa Senatının sədri Jerar Larşenin çox komik səslənən sözlərini xatırladıqda görürük ki, bu erməniрərəstin, nə olduğunu bilmədiyi barədə belə pafosla danışmasının gülünc görünməsi eyni ilə Avropa Parlamentinin yanaşması ilə üst-üstə düşür. Yəni, bu kvaziformal yanaşma bütün erməniрərəst siyasətçilərə də, qurumlara da, qüvvələrə də aiddir və yardımçı platformalar müstəvisində hansısa qətnamənin qəbul edilməsi mahiyyət etibarı ilə kvaziformal görüntü də yaradır.

***İnam Hacıyev***

# İkisi də təhlükəlidir: normalı da, elektronu da

**Elektron siqaretlər, adətən, tərkibində nikotin olan maye məhlulu qızdıran və onu nəfəs almaq üçün mümkün olan buxara çevirən cihazlardır. Elektron siqaretlər bir çox ölçüdə və formada olur. Elektron siqaretlərin tərkibində ağciyər xəstəliklərinə səbəb olan nikotin, kimyəvi diasetil, nikel, qalay və qurğuşun kimi zərərli maddələr var. Elektron siqaret istifadə edən insanlar yaranan buxarı ağciyərlərinə çəkirlər və daha sonra normal siqaret istehlakında olduğu kimi geri üfürürlər. Ona görə istifadə edildiyi mühitdə digər insanlar tərəfindən tənəffüs yolu ilə qəbul edildiyinə görə ətrafdakılar da passiv elektron siqaret istifadəçisi olur.**





## Adi siqaret qədər təhlükəli

Elektron siqaretlərin zərərli təsirlərindən biri də ölümcül xəstəliyin başlanğıcı olan "bronxiolitis obliterans"dır. Yəni, elektron siqaretlərin tüstüsü ağciyərlərdə hava kisələrini qoruyan makrofaqların fəaliyyətini poza və onların zədələnməsinə səbəb olur. Bu, nəfəs darlığına və öskürəyə yol açır ki, nəticədə orqanizmdə ağır ağciyər xəstəliyi baş qaldırır.

Elektron siqaretlərin tərkibində də adi siqaretlərdəki kimi nikotin olduğu üçün onların asılılıq təsiri kifayət qədər yüksəkdir. Nikotin beyində dopamin ifrazına səbəb olaraq həzz verir. Elektron siqaretdən istifadə edən insanlar zərərlərini və yaratdığı yüksək riskləri bilsələr də ondan istifadə etməyə davam edirlər. Çünki artıq orqanizm ondan asılıdır.

Elektron siqaretlər, tərkibindəki propilen qlikol səbəbindən ağciyərlərdə ciddi qıcıqlanmaya səbəb ola bilər. Eyni zamanda, nikotin 20 yaş ərəfəsində olan yeniyetmələrin və gənclərin beyin inkişafına zərər verir. Xüsusilə, yeniyetməlik dövründə gənclərin beynində qərar qəbuletmə və impulslara nəzarət hələ inkişaf etmədiyi üçün nikotindən daha çox istifadə edirlər. Gənclərin nikotinə məruz qalması ciddi risklər yaradır. Elektron siqaretlərin yaratdığı nikotin asılılığı emosional pozğunluqlara səbəb ola bilər və beynin öyrənməyə nəzarət edən hissələrinə zərər verə bilər.

Ölkəmizdə istifadə yaşı 12-15 yaşadək düşən elektron siqaretin əsas aludəçiləri məktəbli uşaqlardır. Məktəb tinlərindən, dalanlarda, xəlvət küçələrdə hər məktəblinin əlində bir elektron siqaret, acgözlüklə sümürdüyünün siz də şahidi olmusunuz. Cinsiyyət fərqi olmadan, qız-oğlan qarışıq istifadə edilən elektron siqaretin onların orqanizminə vurduğu təhlükə barədə əksəriyyəti məlumatlı deyil.



## Sonsuzluq statistikasındakı payı

Elmi araşdırmalara görə, elektron siqaretlər kişilərdə sperma sayının azalmasına səbəb olur. Bu vəziyyət hamiləlik planlayan və ailə tərkibini artırmağı düşünən insanlara mənfi təsir göstərə bilər. Bundan əlavə, elektron siqaretlər yumurtanın keyfiyyətinə də təsir edir, dolayısı ilə siqaret çəkməyənlərə nisbətən 10 dəfə daha çox sonsuzluq riski verir. Bundan əlavə, qadınlarda erkən klimaks və vaxtından əvvəl doğuş riskini artırır.

Elektron siqaretdən istifadə zamanı qəbul edilən nikotin qadınların yumurtalıq hüceyrələrinə təsir edərək təbii yolla hamilə qalmağı çətinləşdirə bilər. Hamilə qaldıqdan sonra isə hamiləliyin pozulmasına, uşaqlıq və sidik kisəsi xərçənginə səbəb ola bilər. Adi siqaretdən heç bir fərqi olmayan elektron siqaretlər kişilərdə reproduktiv funksiyalara ciddi təsir göstərə bilər.

Hamiləlik dövründə elektron siqaret istifadəsi körpənin beyin inkişafına mənfi təsir göstərir və orqanlara qalıcı ziyan vurur. Eyni zamanda, hamiləlik dövründə çəkilən elektron siqaretlər körpənin ağciyərlərinin inkişafına mane ola bilər və doğuşdan sonra xəstəliklərə səbəb olur.

## DNT-ni dəyişmək gücü var

Elektron siqaretdən istifadə edən insanlarda koronar arteriya xəstəliyi, depressiya və infarkt ehtimalı yüksəkdir. İstifadə etməyənlərlə müqayisədə insult və ya infarkt kimi problemlər yarada bilər. Elektron siqaretlər qan damarlarının sərtləşməsinə səbəb ola bilər, oksigenlə zəngin qanın ürəyə və bədənin digər hissələrinə getməsinə mane olur. Tərkibindəki nikotin səbəbiylə ürək döyüntüsünü artıraraq infarkta zəmin hazırlayır.

Elektron siqaretlər, kimyəvi maddələr və hissəciklər səbəbindən astma və xroniki ağciyər xəstəliklərinə görə ağciyər iltihabına səbəb olur. Bu da xərçəng riskini artıraraq DNT zədələnməsinə səbəb ola bilər. Elektron siqaret buxarı da ağciyər mühitində immun hüceyrələrinə mənfi təsir göstərərək ağciyərin iltihabına səbəb ola bilər. Şimali Karolina Universitetində aparılan araşdırma nəticəsində məlum olub ki, elektron siqaretlərin tərkibindəki iki əsas inqrediyent (propilen qlikol və bitki qliserin) hüceyrələrə toksik təsir göstərir ki, bu da ağciyər xəstəliklərinə yol açır.




Araşdırmalar göstərir ki, elektron siqaretlər diş və diş ətinə də mənfi təsir göstərir. Bakteriya artımı, quruyan ağız, iltihablı diş ətləri, ümumi qıcıqlanma və bərpaolunmayan hüceyrə ölümü kimi problemlər gələcəkdə böyük xəstəliklərə səbəb ola bilər. 2018-ci ildə aparılan bir araşdırma göstərdi ki, elektron siqaretlərin aerozoluna məruz qalan dişlər, istifadə etməyənlərə nisbətən daha çox bakteriya əmələ gətirir. Bu bakteriyaların diş çürüməsi, ağızda yaralar və ya diş əti xəstəliyi ilə əlaqəli olduğu sübut edildi.

***Lalə Mehralı***

# İsrail-Fələstin müharibəsinin sonu nə ilə bitə bilər?

"Bu, İsrail- Fələstin arasında olan ilk müharibə deyil. İlk olaraq İsrail-Fələstin müharibəsində ən böyük səbəbi BMT-nin zəif, dişsiz olduğunda və BMT-nin qəbul etdiyi qərarları keçirə bilməməyində görürəm. Biz son 30 ildə bütün bunlarla üz-üzə gəldik və gördük ki, Azərbaycana qarşı aqressiyanın önünü BMT ala bilmədi. Başda cənab Prezident İlham Əliyev olmaqla Azərbaycan bütün qərarları özü həyata keçirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib. Onun sözlərinə görə, bir çox ekspert və siyasi liderlər hər biri eyni sözü deyir ki, BMT-nin özündə böyük islahatlar getməlidir: "BMT ya İsrail-Fələstin kimi dünyəvi problemləri kökündən həll etməli, ya da BMT-də güclü islahatlar getməlidir və qaçınılmaz bir haldır".



Rüfət Quliyev sözlərinə belə davam edib: "Fələstinə humanitar yardımdan başqa ən azı 700 milyon avro Avropa Birliyi köməklik göstərir. Bəs, bu pullar hara gedir? Bu pullar Fələstindəki 2 milyon insanın inkişafı və BMT layihələrini həyata keçirmək üçün lazım idi. Şübhə var ki, bu vəsaitlərin çoxu silahlanmaya, hərbi təlimə gedir və sonra anti-İsrail məqsədləri ilə qayıdır. Düşünürəm ki, dünyanın aparıcı siyasətçiləri papağını qabağına qoyub düşünməlidirlər. İstər İsrail-Fələstin, istərsə də başqa problemlərdə BMT-nin rolu çox olmalıdır. Problemləri özbaşına buraxmaq olmaz, həll etmək lazımdır. Mülki insanlar müdafiə edilməlidir. Məntiqsiz bir hərəkətdir ki, BMT-də 200 ölkə qeydiyyatdan keçib və qərar verirlər. Amma bu qərarlar həyata keçirilmir.

Düşünürəm ki, İsrail mülki insanların və əsgərlərinin qanını yerdə qoymayacaq. Keçən dəfə də belə olmuşdu. Müharibələrin hər biri İsrailin qələbəsi ilə yekunlaşmışdı. Əsas mülki insanların təhlükəsizliyidir. Bunun üçün BMT-nin verdiyi qərarlar həyata keçirilməlidir".

***Ayşən Vəli***

“Müzəffər Azərbaycan Ordusu hər gün yeni hərbi uğurlara imza atır. Hər gün, demək olar ki, ya hansısa bir şəhər, ya kənd işğaldan azad edilir, yaxud da bu kəndlərin ərazisi nəzarət altına alınır. Bu gün deyə bilərəm ki, bir neçə yaşayış məntəqəsi indi bizim tam nəzarətimiz altındadır. Sadəcə olaraq, o yaşayış məntəqələrinə biz hələ girməmişik, çünki hərbi nöqteyi-nəzərdən buna ehtiyac yoxdur”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin oktyabrın 12-də Türkiyənin ”Haber Global” televiziya kanalına müsahibə verərkən bildirmişdir.

27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi hər gün yeni qələbələrimizlə davam edirdi və işğalda olan ərazilərimiz Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən azad edilirdi. Azərbaycan müharibənin ilk günlərində döyüş meydanında öz gücünü göstərdi və elə bir müharibə apardı ki, bütün dünya bunu izlədi. Artıq bu günə qədər - müharibədən ötən günə qədər bir çox ərazilərimiz işğaldan azad olunmuşdur. Belə ki, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər, Tərtər rayonunun Suqovuşan və Talış kəndləri Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri



# Zəfərə aparan tarixi günlər



Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri,

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri, Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri, Tərtər rayonunun Çaylı kəndi işğaldan azad edilmişdi. Ermənistan qaçılmaz məğlubiyyətini dərk edirdi.

## ”ERMƏNİSTAN DÖYÜŞ MEYDANINDA İLK GÜNDƏN MƏĞLUBİYYƏTƏ UĞRAMAĞA BAŞLAMIŞDI”

”İkinci Qarabağ savaşı dönəmində də Ermənistan döyüş meydanında ilk gündən məğlubiyyətə uğramağa başlamışdı”, - deyən Cənab Prezident müsahibələrinin birində bildirib ki, 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmadıq: ”Hətta manevr etmək məqsədilə də geri addım atmadıq. Ermənistan isə artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak oldular. Bu görüntülər var. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Tərtər şəhərinə, - o qədər də böyük şəhər deyil, - 20 minə yaxın raket düşmüşdür”. Ermənistan Ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq, Azərbaycan əraziləri-ni, mülki vətəndaşları atəşə tutulmaqda davam etməsi onu göstərmiş oldu ki, təzavüzkar siyasətini davam etdirir. Ermənistan Silahlı Qüvvələrinin Bərdə və Tərtər şəhərləri-ni ”Smerç” raketindən atəşə tutması erməni vəhşiliyinin daha bir nümunəsi oldu. Bu bir daha Ermənistan tərəfinin Azərbaycanın hərbi qüvvələrinə zərbə endirməkdə acizliyini təsdiqlədi. Ermənistan silahlı qüvvələri Bərdədə dinc sakinləri ”Smerç” raketləri ilə atəşə tutaraq, şəhərdə dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirdi. Nəticədə aralarında uşaq və qadınlar da olmaqla, 21 dinc sakin həlak oldu, 70-ə yaxın mülki şəxs yaralandı. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi. işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə humanitar atəşkəs razılaşmasının tələblərini pozaraq dinc sakinlərimizi bilərəkdən hədəfə almaqda davam edirdi. Ermənistan humanitar atəşkəsin prinsiplərinə riayət etmədiyini, yenidən düşmənçilik və təcavüzkar siyasətini davam etdirdiyini hər addımında təsdiqləyirdi. Humanitar atəşkəsin elan olunmasından 14 saat sonra Gəncə və Mingəçevir şəhərlərinin işğalçı dövlət tərəfindən yenidən raket hücumuna məruz qalması artıq qırmızı xətti keçmək demək idi. Düşmənin mülki əhalini və infrastrukturu məqsədyönlü şəkildə hədəfə almasında məqsəd dinc sakinləri təşvişə salmaq idi. Əminliklə deyə bilərik ki, avantürist erməni hakimiyyəti məqsədinə çata, Azərbaycan xalqında, həmçinin Gəncə sakinlərində heç bir təşviş yarada bilmədi. Xalqımız, o cümlədən bütün gəncəlilər düşmən terrorundan, təxribatından çəkinmədən öz işinə davam etdi, şanlı ordumuzun uğurlarından daha da ruhlanırdı. Əmin idi ki, Azərbaycan haqq mübarizəsində tezliklə qalib olacaq.



## ÜÇTƏRƏFLİ BƏYANATLA ERMƏNİSTAN TƏSLİM OLDU

Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, Ermənistanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. Qarabağ müharibəsi vaxtı cəbhə bölgəsində atəşkəsi nəzərdə tutan sənəd olan ”Bişkek protokolu” 1994-cü ilin mayında imzalanmışdır. 26 il atəşkəs rejimində Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozuldu. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət vermədi. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də beynəlxalq hüququn normalarını kobud şəkildə pozmuş oldu. 30 il ərzində torpaqlarımızın işğal altında olmasının böyük ədalətsizlik və beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd idi.

Vətən müharibəsində onlara Azərbaycan yetərincə dərs verdi və 44 gün ərzində işğalçıları öz torpaqlarından qovdu. Tarixi ədalət bərpa olundu. 2020-ci ilin noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən təslim oldu.

Artıq işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsidir. İşğaldan azad olunmuş ərazilərdə dövlətimizin başçısının tapşırığı ilə bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Dini-mədəniyyət abidələrimiz təmir və bərpa olunur, infrastruktur qurulur. ”30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir”,- deyən Prezident bizim burada əsas rəqibimizin zaman olduğunu bildirmişdi. Azərbaycanın dinamik inkişafı tezliklə işğaldan azad olunan ərazilərimizin bərpasına imkan verir və illərdir vətən həsrəti ilə yaşamış insanlar qısa bir zamanda öz yurdlarına, doğma ocaqlarına mərhələli şəkildə dönürlər.

***Zümrüd BAYRAMOVA***

# Bir yataqda, yan-yana...

**Əvvəl hamı yatağında tək yatır, rahat, qayğısız... Ailə qurana-dək bəli, tək yatır. Ailə qurandа isə böyüklərimiz "bir yastıqda qocalın" nəsihətini etməklə gənclərə xeyir-dua verirlər. Gənclər də öz yataqlarını sevdikləri insanla bölüşürlər...**

Lakin kimin ağlına gələrdi ki, vaxt gələcək ki, tək ər-arvad yox, hamı yatağını bölüşəcək. Maraqlıdır, deyilmi?

Elə bir dövrə gəlib çatdıq ki, artıq həm övladlarımız, həm də özümüz yatağımızı paylaşmalı olmuşuq. İndi ər-arvad da yatağını bölüşür, subay olanlar da.

Azyaşlı uşaqlardan başqa hər bir insan övladı gecəni yatağında tək uyumur, onunla səhərləri axşamlayan, axşamları səhər edən biri var: mobil telefon...

## Qısa bir arayış

Müasir dünyada ağıllı mobil telefonlar mühüm informasiya-kommunikasiya texnologiyaları kimi istifadə olunur. Mobil telefonlar əvvəllər yalnız zənglər üçün idi və mətn-şəkil mesajları göndərə bilirdi. İndi isə o, e-poçt və internetə çıxış, qısa məsafəli simsiz rabitə, oyun və əyləncə, musiqi dinləmək, iş, sosial şəbəkələr, televizora baxmaq, foto çəkmək, video çəkmək və ya istiqamət almaqla, GPS-dən istifadə etmək kimi bir çox funksiyaları yerinə yetirir. Bu vəziyyətdə cib telefonları bəşər tarixində ən çox istifadə edilən texno-



logiyalardan birinə çevrilib.

Rəqəmsal Qlobal Xülasə Hesabatına əsasən, mobil telefondan istifadə hər il artır. 2015-ci ildə dünya əhalisinin 4,15 milyardı, yəni 57 faizi cib telefonundan istifadə etdiyi halda, 2019-cu ildə bu nisbət 53 milyon artaraq 4,68 milyarda, yəni 62 faizə çatıb. 2020-ci ildə bu rəqəm 4,78 milyarda çatıb. Bu gün isə ümumilikdə 5,44 milyard insanın bir mobil telefonu var. Beləliklə dünya əhalisinin 68 faizindən çoxu telefondan bəhrələnir.

2023-cü il Rəqəmsal Qlobal Xülasə Hesabatına görə cib telefonu sahibləri onunla gündə orta hesabla 5 saat vaxt keçirirlər. Təbii ki, söhbət gündüzdən gedir. Hələ telefon sahiblərinin gecələr onunla bir yatağı bölüşməsini bir kənara qoyuruq...

## Ölkəmizdə isə...

Azərbaycanda 2020-ci ildə 10 milyon 344,3 min nəfər olub, nüfuz dərəcəsi isə 104% təşkil edib. 2021-ci ilin göstəricisinə bu, 4,6% artaraq 10 milyon 817,1 min nəfər təşkil edib. 2021-ci ilin sonuna əhalinin hər 100 nəfərinə 108 mobil telefon abunəçisi düşüb ki, bu da bir il öncəki göstəricini 4 nəfər üstələyib.

Qeyd edək ki, 2022-ci ildə isə ölkəmizdə



mobil telefon abunəçilərinin sayı 11 milyon 068,1 min nəfər olub. Əhalinin hər 100 nəfərinə 110 mobil telefon abunəçisi düşüb ki, bu da əvvəlki göstəricini 2 nəfər üstələyir.



## Cibimizdə, əlimizdə, yatağımızda...

Səhər açılandan axşamadək telefonlarımız ya əlimizdə, ya da cibimizdədir. Gecələr isə telefonu artıq çarpayımızın yanındakı şkafın üzərinə qoymuruq. Bu, əvvəllər belə idi. Elə ki, illər ötdü, biz telefonla daha da yaxınlaşdıq, onunla doğma, sevgili olduq, bizə çoxsaylı sosial şəbəkələr təklif etdilər, biz də onların arasına ayrı-seçkilik qoymadıq, hamısını bir nöqtəni basmaqla qonağımız etdik, bu dəfə onu şkafın üzərindən götürüb yastığımızın altına, yanımıza qoyduq. Telefon da bizimlə eyni yatağı paylaşmalı oldu.

Əslində rahat yataq deyə telefonu hərdən şkafın üzərinə qoymağı planlaşdırırıq. Lakin bu yuxuya nə deyəsən? Gecənin yarısınadək sosial şəbəkələrdə gəzişərkən birdən yuxu səni necə aparırsa, telefon əlindən düşüb səninlə bir yatağı paylaşmalı olur.

Bu barədə nə vaxt söhbət açırsansa, "ay bala, ay uşaq, ay qızım, ay oğlum, ay kişi, bu telefon sizin sonunuz olacaq",-deyirsənsə, hərə bir tərəfdən üstünə düşür ki, sən də söz tapmısan ey, danışmağa: bir balaca telefondur da, guya onun adama nə maneçiliyi var ki, yastığın altında, yanında olanda guya nə olacaq ki.

İndi sən gəl, bunlara başa sal görüm, necə başa salırsan ki, ey qafil insan, sənə elə gəlir ki, o balaca bir əşyadır. Anla ki, səninlə



bir yataqda böyük bir facia yan-yanadır.

Sən yatırsan, düşünürsən ki, o da yatır. Xeyr, o yatmır. O, sənə "layla" çalır. Amma ananın laylasından fərqlidir, bu layla. Ananın laylası səni böyütmək üçün idi. Telefonunun laylası isə səni itirmək üçündür.

Sən yatırsan, yastığının altından başına sarılan ilanlardan xəbərin varmı? Yoxdur. Lakin diqqət etsən və ağlını başına toplasan, bunu görmək bir o qədər də çətin deyil.

Sən yatırsan, o yan-bu yana çevrilərdə üzün yastığının yanına qoyduğun telefonun üstünə düşür. Səninlə bir yatağı paylaşan bu sevimlidən bilirsən, üzünə nələr daraşır, oradan da beyninə doğru irəliləyir? Bilmirsən. Hələ bir deyəndə gülürsən də. Lakin bir araşdır, onda görəcəksən...

Yuxulayırsan, telefon əlindən düşüb qalır sinənin-ürəyinin üstündə. Sən şirin yuxuda olarkən, o da sənin kimi şirin yuxuya getmir. Sən oyananadək ürəyinə etdiyini edir. Gülürsən, yenə? Çünki anlamırsan, anlamaq da istəmirsən. Sən yuxuda ikən o, ürəyinin qulaqcıqlarına, mədəciklərinə sitəm edir. İnanmırsan, get araşdır, onda anlayarsan...

Bəzən narahat yatırsan, o tərəfə-bu tərəfə çönürsən, telefonun da sürüşüb böyrəyinin düz üstünə düşür. Bilirsən ki, səhərədək o böyrəyinə nə cəzalar verir? Bilmirsən. Ağlına da gəlmir. Bir vaxt yalnız əzilmə hiss edib oyanırsan, telefonun ruhunu incitmədən götürüb yastığının altına, ya da yanına qoyursan. "Ay sənə nə deyim, burada nə gəzirsən?"-, deyib yenidən yuxulayırsan. Lakin xəbərsizsən ki, artıq o sənin böyrəyinə elə bir ziyan vurub ki, lap yaxın gələcəkdə "bəhrəsini" görəcəksən.

Yuxulayırsan, telefon dəqiqələrlə əlində qalır. Onun damarlarına təmasından xəbərsizsən. Sən yatdığın anlarda o, qanınla bütün bədənini dolaşır. Bunu sənə kimsə söyləyəndə uğunursan gülməkdən. "Söz tapdın da danışmağa",- deyirsən. Lakin gülməli gündə özünün olduğundan o qədər xəbərsizsən ki...

## Araşdırmalar sübut edir...



Kaliforniyanın Səhiyyə Departamentinin əməkdaşları xəbərdarlıq ediblər ki, insanlar yuxu zamanı smartfonları özlərindən ən azı bir əl məsafəsində saxlamalıdırlar. Qeyd edilir ki, mobil telefonlarda şüalanma dozası, hansını ki, insan yuxu ərzində alır, xərçəng və sonsuzluğun inkişafı riskini əhəmiyyətli dərəcədə artıra bilər.

"Telefonu yanında saxlamaq heç vaxt yaxşı ideya hesab edilmir", - deyə doktor Devra Devis qeyd edib. Jurnalistlərin sözlərinə görə, mobil telefonların istehsalçılarının özləri faktiki olaraq bu avadanlığın sağlamlıq üçün təhlükəsini bilirlər. Və təlimatlarda onun haqqında xəbərdarlıq edirlər. Mütəxəssisləri



ən çox narahat edən odur ki, insanlar telefonda zəngli saatı quraşdırırlar və onu özlərinin yanına qoyurlar.

## Ümumi olaraq

Gün ərzində ümumilikdə 35-40 dəqiqədən artıq mobil telefondan istifadə etmək orqanizmə aşırı dərəcədə ziyan vurur; mobil telefonla çox danışmaq eşitmə sinirlərini korlayır; çox SMS yazmaq barmaqlarda keyiməyə səbəb olur; saatlarla oyun oynamaq gözdə qızartılar və quruluq əmələ gəlir, boyunda və beldə müəyyən müddətdən sonra ağrılar yaranır; diqqət dağınıqlığına səbəb olur; çox danışanda beyin hüceyrələrinin bir qismi ölür; dalğaları qan hüceyrələrinə mənfi təsir edir; mobil telefonlar hətta saç köklərinə də pis təsir göstərir.

Gecələr telefonu söndürmək vacibdir, telefonu söndürdükdən sonra da radioaktiv tə-



sirləri qalır, bu səbəbdən də onu baş nahiyəsinə yaxın qoymaq zərərlidir. Əks təqdirdə: beyində şişlərin inkişafı riskini artırır; hamiləlik vaxtı körpəyə çox pis təsir edir; bədəni şüalanmaya məruz qoyur, təhlükəli şüa saçır; yaddaşı zəiflədir; aludəçilik yaradır; görməni zəifləđir; baş ağrılarına səbəb olur; əsəb sistemini oyadır.

Aludə olmaq ona gətirib çıxarır ki, telefondan uzaq qaldıqda insanlar narahat olur. Bu da: nevroz xəstəliyi yaradır; yuxusuzluğa səbəb olur.

Telefonla çox və yaxın təmasda olmağın kişilərdə sonsuzluq yaratdığı bildirilir. Çünki telefon hüceyrələrdə genetik dəyişikliklərə səbəb olur.

Uşaqlara mobil telefondan yalnız məcburi hallarda istifadəyə icazə vermək olar. Çünki azyaşlılarda xərçəng yaranma ehtimalı ikiqat artıqdır.

## Ən vacib hormon

Yuxu hormonu olaraq bilinən melatonin ətrafdakı işıq miqdarı ilə sıx bağlıdır. İşığın miqdarı azaldıqca artan melatonin maddələr mübadiləsini ləngidir və yuxuya hazırlaşır. Ancaq yatmazdan əvvəl yüksək işıqda cib telefonunun ekranından istifadənin orqanizmdəki melatonin miqdarını azaltma təsiri var. Mobil telefonla yatmağın zərərləri arasında bu məsələ yuxu sağlamlığı ilə sıx bağlıdır. Cib telefonundan yayılan işıqla yanaşı, radiasiya da beynin müvafiq mərkəzlərini stimullaşdırır və yuxuya getməyi çətinləşdirir. Yatmazdan əvvəl oynanan oyunlar, oxunan me-



sajlar, edilən paylaşımlar bədəndə adrenal səviyyəsini artırır, melatoninin basdırılmasına səbəb olur.

## Çox dedik, az eşitdilər

Biz jurnalistlər illərdir, mütəxəssislərin mobil telefonlarla bağlı söylədiyini araşdırıb zərərli tərəflərini dəfələrlə oxuculara çatdırırıq. Təəssüf, baxmayaraq ki, çox deyirik, lakin bizi eşidən azdır. Nədənsə insanlar həmişə zərərli, ziyan olan tərəflərə meyl edirlər. Bunu tək mobil telefonlardan istifadədə deyil, gündəlik həyatımızın bütün sahələrində görmək mümkündür. Məsələn, bu qida ilə, geyimlə, müxtəlif kosmetoloji əməliyyatlarla, alışqanlıq və vərdişlərlə bağlıdır.

Nə üçün insan övladı onun xeyrinə olanların əksinə gedir, bu, hələ də bəşəriyyətə məlum deyil. Lakin düşünəndə ki, bir zamanlar deyilənləri eşitməyib, zərərini çox görmüşük, onda bu gün deyilənləri də eşitməyənlərin bir neçə il sonra çəkəcəyi zərər göz önünə gəlir.

Biz nə qədər az eşidiriksə, mobil telefonların vaxtsız ölümə səbəb olmasından da xəbərsiz qalacağıq. Onlarla bir yataqda, yan-yana olmaqla sağlamlığımızı, həyatımızı, gələcək nəsilləri qurban verdiyimizi anlamağın vaxtı çoxdan çatıb. Lakin biz bu məsələnin dərk edilməsində hələlik, yerimizdə sayırıq. Yerimizdə sayırıqsa, deməli, anlamağımıza hələ xeyli var...

***Mətanət Məmmədova***

ARAŞDIRMA

# Ətirdən xərçəngə bircə addım var

## Pediatr: "Valideyn uşağını müayinəyə gətirəndə ətirləyib gətirir"

**İkili görmə, baş dönməsi, nəfəs darlığı, astma tutması, yaddaş itkisi, diqqətsizlik, oynaq, damar və əzələ ağrıları, yüksək təyziq və daha nələr…**

***Bir çox qadının, eləcə də çoxsaylı kişinin imtina edə bilmədiyi kosmetik vasitə olan ətirlər real təhlükə mənbəyidir. Orijinalından saxtasına, firma istehsalından zirzəmilərdə şüşələrə doldurulanına qədər bütün ətirlər həm orqanizmi, həm də təbiəti zəhərləyir.***



### Orijinal ətir yalanına inanmayın

Saysız-hesabsız marka adı altında satışa çıxarılan növbənöv ətirləri alarkən ən çox üstünlük verdiyimiz daha qalıcı qoxusu olanlardır. Elə ətirlər var ki, hətta paltar yuyulduqdan sonra belə qoxusu qalır. İndi, sadəcə, təsəvvür edin, kimyəvi maddələrlə ən azı 30 dəqiqə yuyulmuş paltarımızdan sevdiyimiz marka ətirin qoxusu bu qədər üstümüzdə qala bilirsə, görün ciyərlərimizdə nə qədər qalır və hansı fəsadları yaradır.

Ətirlərin orijinalı da saxtası da insan orqanizmi üçün təhlükə ehtiva edir. Səbəbi də hazırlanmasında istifadə edilən yüzlərlə kimyəvi maddənin birləşdirilməsidir. Həm orijinal, həm də saxta ətirlərin təhlükəli olduğunu deyən ekspertlər onların qarşısı alınmaz xəstəliklər yarada biləcəyini deyirlər.

Həkim Sülhiyyə Mürsəlova deyir ki, orijinalına nisbətən ucuz olduğu üçün daha çox tələbat olan saxta ətirlərin içərisindəki kimyəvi qatqılar insana xərçəng kimi təhlükəli xəstəliyi "bəxş" edə bilər: "Axı biz alanda o ətirin hansı maddələrdən hazırlandığını, nələrdən əmələ gəldiyini bilmirik, nə olsun ki, deyirlər təbiidir, orijinaldır. Yalnız biznes maraqlarını güdən firmanı istehlakçının sağlamlığı maraqlandırmır. Paraben təhlükəsini bir çox insan bilmir, ətirlərin üzərində bu barədə heç bir məlumat yazılmır. Yazılsa da, əmin olun ki, bu, istehsalçı firmanın maraqlarını qoruyan bir açıqlama olacaq".

### "Paraben" bəşəriyyəti məhv edəcək

Bu gün bütün dünyada ətirlərin orqanizmə fəsadları barədə ən müxtəlif araşdırmalar aparılır. Bütün araşdırmaların nəticəsi isə eyni olur - ətirlər ağciyər xəstəliklərinin yaranması üçün zəmin hazırlayır və bu xəstəliklərə təkan verir.

Təsadüfi deyil ki, həkimlər yeni doğulan körpə ilə təmasda olan insanlara, xüsusilə də, körpənin anasına ətirdən istiadə etməyi məsləhət görmür, çünki kəskin kimyəvi qoxular körpənin ciyərlərinə pis təsir edir. Həkim deyir ki, insan çiyəri digər orqanlarla müqayisədə daha həssas orqandır, ekologiyanın hər gün bir az da çirklənməsi ciyərlərimiz üçün xeyli təhlükəlidir, bu təhlükədən əlavə hər gün kimyəvi maddələrin birləşməsi olan ətirlərə məruz qalmağımız gələcəkdə ağciyər xəstəliklərinin meydana çıxmasına imkan yaradır.

Bütün növ kosmetoloji vasitələrin içində "paraben" mövcuddur. Bu, bir növ qoruyucu kimyəvi maddədir. Şampun, saç kremi, makiyaj təmizləyicilər, nəmləndirici kremlər, dərini qaraldan kremlər, təraş kremləri, ətir kimi bir çox kosmetik vasitənin tərkibində var. Kosmetikaların tərkibində bu qədər çox istifadə edilməsində əsas məqsəd isə məhsulun saxlanma müddətini maksimum artırmaqdır.



### Hər toxumada 20 nanoqram!

Döş xərçəngindən əziyyət çəkən qadınların üzərində aparılan araşdırmalar subut edib ki, sinələrindəki şişin hər toxumasında 20 nanoqram paraben var. Kosmetik vasitələrinizin üzərində papaben maddəsi "methylparaben", "ethylparaben", "benzylparaben" və ya "buthylparaben" formasında yazılır.

Tərkibində "paraben" olan bütün növ kosmetoloji vasitələr zərərlidir, bu maddə daha çox ətirlərin hazırlanmasında istifadə edilir. Kansorogen maddə olduğu üçün ətirlərin daha çox istehsalı ilə məşğul olan Fransada böyük mübahisələrə səbəb oldu. Məlumat üçün qeyd edim ki, bəzi Avropa ölkələrində tərkibində "paraben" olan kosmetik vasitələr qadağan edildi. Tərkibində "paraben"in olduğu məhsullar arasında körpələr üçün istifadə edilən kremlər də var.

Ətirlərin 97%-i neftdən alınan maddələrdən hazırlanır, hazırlanma prosesində bu maddələrlə birlikdə benzin və aldehidlər də yaranır ki, onlar da ətirlərin tərkibində olur. Ətirlər yalnız ondan istifadə edənlər üçün deyil, ətrafda həm sağlam, həm də miqrendən əziyyət çəkənlər üçün zərərlidir.

### Hamiləlik və laktasiya dövründə əsla!

Pediatr Pəri Həsənova deyir ki, ətirlərin tərkibində həddindən çox kimyəvi maddələr var, elə buna görə allergik dəri reaksiyalarına səbəb olan kosmetik vasitələr arasında birinci yeri ətirlər tutur: "Əgər ətirlərə qarşı allergiyanız varsa, bu məhsulları istifadə edəndə dərinizdə şiddətli allergik dəri reaksiyaları başlaya bilər. Qızartı, qaşınma, səpki kimi əlamətləri olur. Biz həkimlər uşaqlara ətir təmasının qəti əleyhinəyik. Bir də görürsən bir ana uşağını müayinəyə gətirib, uşaq elə bil ətir vannasına salınıb, hər tərəfi ətir qoxuyur. Təhlükəsini valideynə başa salırıq, növbəti ay müayinəyə gələndə eyni şey təkrarlanır".

Pediatr deyir ki, bu məsələyə hamiləlik vaxtından nəzarət etmək lazımdır: "Ginekoloqlar gərək pasiyenlərinə ətirdən istifadə etməyi qadağan eləsin. Çünki hamının orijinal ətir almaq imkanı yoxdur, zirzəmilərdə doldurulan saxta ətiri alıb istifadə edən hamilə bununla həm özünə, həm uşağına təhlükə yaradır. Əslində, biz həkimlər hamiləlikdə, laktasiya dövründə heç orijinal ətiri də məsləhət görmürük, çünki nə qədər əsl ətir deyilsə də, bilirik ki, o kimyəvi maddələrdən ibarətdir. Siz heç dərib güldana qoyduğunuz yasəmənin 1 həftə eyni qoxunu verdiyini görmüsünüzmü? 2 gün qoxuyur, sonra ətri hiss edilmir. Amma yasəmən ətirini istifadə edək, 1 həftə üstümüzdə qalacaq. Deməli, o ətiri qalıcı edən kimyəvi maddələr var".




Xüsusilə, dermotoloji problemləri olan qadınlara ətirin qadağan edilməsini vacib hesab edən pediatr uşaqları əmizdirmə dövründə ətirlə kontaktdan uzaq olmağı məsləhət görür. Körpəniz üçün istifadə etdiyiniz bəzi dəri kirşanlarında və kremlərində də yüksək dozada paraben var. Uşağın dərisi səpirsə, səpki əleyhinə krem əvəzinə zeyrun yağı, qaz yağı istifadə edin.

### Elmi araşdırmalar nə deyir?

Amerikada aparılan bir araşdırma nəticəsində məlum oldu ki, ətirlərin tərkibindəki "benzolin" adlı maddə insan orqanizmini məhv edir. Araşdırma zamanı siçanların nəfəs aldıqları oksigen ətirləndi, nəticələr elan ediləndə isə məlum oldu ki, ətirlər siçanların limfa düyünlərinin genişlənməsinə, dalaqlarının böyüməsinə, ağciyərlərində ləkə yaranmasına və eyni zamanda, qaraciyərlərinin böyük zərər görməsinə səbəb olub.

Rusiyada aparılan başqa bir araşdırma nəticəsində isə aşkar edildi ki, göz yaşarması, bəbəklərin quruması, ikili görmə, asqırma və öskürək, burunun tutulması, qulaqlarda küy və cingilti və ağrı, baş dönməsi, nəfəs darlığı, udqunmada problem, astma tutması, kəskin baş ağrıları, qısa müddətli yaddaş itkisi, diqqətsizlik, ürək bulanmaları, həyəcanlanma, tez-tez əsəbiləşmə, oynaq, damar və əzələ ağrıları, yüksək təyziq, limfa toxumalarında şişlik kimi əlamətlərə səbəb olan ətirlər, əslində, insan orqanizminin düşmənidir.

Azərbaycanda ətirlərin insan orqanizminə təsiri ilə bağlı elmi araşdırma aparılmayıb. Amma ayrı-ayrı həkimlərin şəxsi mülahizələri bu kosmetik vasitənin zərərləri barədə ciddi düşünməyə əsas verir. Ətirlərin vərəm xəstəliyinə təkan verməsi isə dünya ölkələrində çoxdan təsdiqini tapmış məsələdir.

*Lalə Mehralı*

---



**Elçin Bayramlı**

## Cinayət sayılmayan qətl

və ya insan öldürülməsinə görə niyə heç bir cəza yoxdur?

***Abortlar faktiki olaraq qətl hadisəsidir,- bu, hələ doğulmağa imkan tapmamış körpələrə qarşı fiziki terror, analara qarşı isə həm psixoloji, həm bioloji terrordur. Abortlar, xüsusən də selektiv abortlar bir cəmiyyəti xəstə vəziyyətə salır, demoqrafik vəziyyəti ağırlaşdırır, milli genefondu məhv edir, cinslərin təbii balansını pozur. Qısaca desək, abort ən qorxunc və ən dəhşətli bəladır.***

ÜST-ün hesabatlarına görə, hər il dünyada 50 milyondan çox qadın abort olunur. Onların 20 milyonu qeyri-leqal abortlardır, bu hal qadın ölümü hallarının artmasına yol açır. Abortların 78 faizi inkişaf etmiş ölkələrin, 22 faizi inkişaf etməkdə olan ölkələrin payına düşür. Abortların sayına görə ən aşağı göstərici dinin hakim olduğu ölkələrdədir. Belə ölkələrdə il ərzində 1000 qadına 10 abort düşür. Digər ölkələrdə bu göstərici hər 1000 qadına 10-80 abort arasında dəyişir.

Azərbaycanda 2022-ci ildə ölkədə 58 min abort qeydə alınıb. 2021-ci ildə isə bu göstərici 47 minə yaxın olmuşdu. 2020-ci ildə isə bu rəqəm 35 mindən də az idi. Göründüyü kimi, kəskin artım var.Hələ bu rəsmi rəqəmlərdir. Hesab edilir ki, real rəqəmlər rəsmi statistikadan dəfələrlə daha çoxdur. Həm rəsmi, həm qeyri-rəsmi statistika göstərir ki, Azərbaycanda abortların sayının artması son dərəcədə acınacaqlı haldadır. Xüsusən də, selektiv abortlar daha təhlükəlidir. Selektiv abortlara görə biz dünyada ilk yerlədən birini tuturuq.

Son 20-30 ildə bu sahədə vəziyyət daha da pisləşib. Bəzi bu işlə məşğul olan həkimlər etiraf edirlər ki, son vaxtlar müraciətlər daha çox kütləviləşib. Aydındır ki, bunların çoxu rəsmiləşmir və statistikaya daxil olmur.

Ana bətnindəki körpələrin abort edilərək öldürülməsinin heç bir bəraəti ola bilməz. Yalnız doğuşun qadının həyatına təhlükə törədəcəyi halda bu, mümkün sayılır. Hesablamalara görə, abortların yalnız 1-2 faizi son məcburiyyət halında edilir.

Abort faktiki qətl hadisəsi olmaqdan əlavə, həm mənəvi, əxlaqi, psixoloji cəhətdən deqradasiyanın son həddidir, həm də milli genefondumuzun, ailə institutumuzun tam dağılması deməkdir. Tibbi araşdırmalara görə, ana bətnindəki embrionun ürək döyüntüləri 18 gündən sonra başlayır, 40 gün sonra baş beynə impulsların getdiyi müşahidə olunur, 6-7 həftədən sonra müstəqil hərəkətə başlayır.

Yəni, ana bətnindəki uşağı öldürməklə, küçədəki hər hansı bir şəxsi öldürmək arasında heç bir fərq yoxdur. Maraqlıdır ki, qanunlar hər hansı bir qətlə ağır cəzalar verdiyi halda, körpələrin göz qabağında açıq şəkildə qətli həyata keçirildikdə buna nə qanun, nə də bir başqası reaksiya verir. Açıq şəkildə ölkədə hər gün yüzlərlə qətl törədilir. Faktiki olaraq, milli genefonda qarşı kütləvi terror törədilir. Buna görə cinayət məsuliyyəti olmadığından kim necə istəyir eləcə də hələ doğulmamış körpəsini öldürür. Bəzi ölkələrdə abortların edilməsinə qarşı daha mühafizəkar qanunlar var. Hətta bəzi Avropa ölkələrində belə, abort etmək qadağandır və abort edən şəxs sərt cəzalandırılır.

Azərbaycan qanunvericiliyində aborta məcbur və təhrik etməyə görə 115-ci maddənin 2-ci və 3-cü hissələrinə görə islah-əmək koloniyalarında cəza verilir. Lakin könüllü aborta görə cinayət məsuliyyəti yoxdur.

Bunun qarşısını almaq üçün nə dövlət, nə də cəmiyyət heç bir tədbir görmür. El arasında "arvad-uşaq komitəsi" adlandırılan orqan dövlətin pullarını boş yerə xərcləməklə məşğuldur və bu sahədə heç bir iş görmür, hansısa effektiv təbirlər həyata keçirmir, nəzarət etmir.

Abortlar geniş planda baxıldıqda milli təhlükəsizlik məsələsidir. Demoqrafik cinsi disbalansın yaranması gələcəkdə ağır fəsadlar verəcək. Bu milli fəlakətdən xilas olmaq üçün təcili şəkildə dövlət bu məsələ ilə bağlı ya xüsusi proqram qəbul etməlidir, ya da bu sahə üzrə geniş səlahiyyətlərə malik xüsusi dövlət orqanı yaradılmalıdır. Bu sahəyə çox ciddi nəzarət olunmalıdır və çox sərt cəzalar qoyulmalıdır.

Təcrübə göstərir ki, maarifləndirmə və tbliğatlas heç nəyə nail olmaq olmur. Əksinə vəziyyət getdikcə pisləşir. Demək ümid qalır sərt inzibati tədbirlərə. Abort edən və etdirən uzun müddətə həbs cəzasına layiq görülməlidir. Yalnız bu yolla bu dəhşətli fəlakətin qarşısını almaq olar.

# Qarabağ qazisi Maksim Voskresenski: ”Dövlət bizi unutmur”

## "Haqqımda mətbuatda yazılandan sonra hamı gəlib yarmarkada məni axtarırdı və məndən bal alırdı"

Azərbaycanın Zaqatala şəhərindən olan 21 yaşlı arıçı Maksim Voskresenski haqda ötən il ”Moskva-Baku” portalında məqalə nəşr olunandan sonra o, Bakıda keçirilən bal yarmarkasında ən populyar şəxs olub. Portal daha sonra göstərdiyi şücaətə görə 5 medalla təltif edilmiş İkinci Qarabağ müharibəsi veteranı olan gənc arıçıdan müsahibə alıb. Maksimlə müsahibə Azərbaycan mediası tərəfindən yenidən dərc edilib, sosial şəbəkələrdə paylaşılıb və istifadəçiləri bal yarmarkasında veterana dəstək olmağa çağırıblar. Gənc arıçının dükanında növbə yaranmağa başlayıb, insanlar ondan xeyli bal alıb, onunla fəxr etdiklərini deyib, Qarabağ müharibəsindəki qələbəyə görə ona təşəkkür ediblər. Bu günlərdə Maksim Voskresenski yenidən Bakıda illik bal yarmarkasında iştirak edir və ”Moskva-Baku” portalının müxbiri son bir ildə onun həyatının necə dəyişdiyini öyrənmək üçün gənc arıçı ilə söhbət etmək qərarına gəlib. Müsahibəni oxucularımıza təqdim edirik.




***- Ötən il bal yarmarkasından qayıdandan sonra Zaqatalada necə qarşılandınız?***

- Ailəm və dostlarım mənim uğurumdan çox sevindilər. Xüsusilə də valideynlərim mənim gətirdiyim bütün balı bir neçə günə sata bildiyimi biləndə. Mən irsi arıçılar ailəsindənəm və keçən il valideynlərim məni ilk dəfə Bakıdakı yarmarkaya göndərdilər. Əvvəlcə atama dedim ki, çətin ki, nəyəsə nail olacam, baxmayaraq ki, ailə üçün pul qazanmalıyam. Mən həqiqətən valideynlərimə kömək etmək istəyirdim. Amma ilk vaxtlar satış ləng gedirdi, nədənsə alıcılar balı yaşlı arıçılardan, iri satıcılardan almağa üstünlük verirdilər və onların nəzərində mən çox gənc və təcrübəsiz görünürdüm.

Mən də o zaman gəlib mənə dəstək olan hər kəsə təşəkkür etmək istəyirəm. Portalınızda dərc olunandan sonra yadımdadır, yarmarkanın girişində bir-birinin ardınca gələnlər Maksimi necə tapa biləcəklərini soruşurdular Çoxdandır yarmarkada belə bir həyəcan yaşanmırdı. İnsanlar bal alır, dəstək sözləri deyir, müharibədən soruşurdular. Hətta hərbi geyimlilər də gəlib məni qucaqladılar. Əslində, mən yarmarkadakı heç bir qonşuma Qarabağ müharibəsində iştirakım barədə deməmişdim, düşündülər ki, təzə oğlan gəlib, cavandır, qoy məhsulunu satmağa çalışsın. Və biləndə təəccübləndilər və inana bilmədilər ki, 20 yaşımda Qarabağ müharibəsində igidliyə görə 5 medalım olub.

***- Son bir ildə həyatınızda nə dəyişdi? Haqqında danışdığınız köhnə UAZ-ı təmir etmisiniz?***

- Bəli, düzəltdim və indi onu təhlükəsiz sürə bilirəm (gülür). Yaxşı bal satışı sayəsində təsərrüfatımı genişləndirə bildim. Belə ki, keçən il şəxsən mənim 10 arı ailəm olubsa, bu il onların sayı 30-a çatıb.

Bilirsiniz, arıxana mənim üçün bir növ xilas oldu, müharibədən sonra reabilitasiya oldu. Müharibə heç vaxt asan olmur... Amma arıxanada yaşadıqlarımı, özümə gələnləri yavaş-yavaş unutmağa başladım. Təbiət insana həmişə faydalı təsir göstərir.

Mən 6-cı mükafata da layiq görüldüm. ”İgid döyüşçü”, ”Şuşa” ”Füzuli”, ”Cəbrayıl”, ”Xocavənd”in azad olunmasına görə, medallarım olub, indi də ”Vətən müharibəsində iştiraka görə” medalım var. Üç il keçib, amma dövlət öz əsgərlərini unutmur və bu çox gözəldir.

***- Bu il nə qədər bal gətirmisiniz?***

- 400 kq. Satışlar artıq başlayıb və oktyabrın 22-nə, yarmarkanın bağlanışına qədər burada olacam. Keçən il məşhur olan bal də daxil olmaqla 5 növ bal gətirmişəm. Məndən çox xahiş etdilər ki, gətirim, çünki yarmarkada çətin ki, kimsədən belə balı alasan. Sevinirəm ki, bu il məni unutmadılar, insanlar yenidən yarmarkaya gəlir və məni axtarırlar.

***- Daimi müştəriləriniz varmı?***

- Bəli və bütün il mənə sifariş göndərdilər. Onlara birbaşa Zaqataladan bal göndərirdim, bəzən fürsət düşən kimi özüm də gəlirdim. Səfərlərimin birində Bakıdakı pravoslav kilsəsində oldum və orada arximandrit Alekseylə tanış oldum. Belə çıxır ki, o da mənim haqqımda yazı oxumuşdu, amma o vaxta qədər yarmarka bitmişdi və onun orada iştirak etməyə vaxtı yox idi. Ata Aleksi ilə pravoslav kilsəsi üçün daimi bal tədarükü barədə razılığa gəldik.

***-Evlənmək fikrində deyilsən?***

- Bu haqda danışmaq hələ tezdir. Əvvəlcə evi qaydasına salıb toya pul yığmalıyıq.

***- Azərbaycanda ekoturlar populyarlaşıb. Qonaqları arıxanaya dəvət etmək fikrindəsiniz?***

- Bəli, bilirəm ki, turistləri arıxanalara aparmağa başladılar, orada ferma ilə tanış olurlar və özləri bal ”yığırlar”. Amma belə turlar təşkil etmək mənim üçün çətin olacaq, təcrübəm yoxdur. Ancaq mən həmişə məmnuniyyətlə qonaqları qəbul edəcəyəm, təkcə arıxananı deyil, həm də meşələrdə və dağlarda bələdçi olacağam və oralar çox gözəldir! Mən ovçu olmaq arzusundayam. Mən təbiəti çox sevirəm. Ailəmiz bir neçə nəsildir ki, mənzərəli və çoxmillətli Zaqatala rayonunda yaşayır və biz həyatımızı bu ərazisiz təsəvvür edə bilmirik.

***- Həmkarlarınızla ünsiyyət qurursunuzmu?***

- Bəziləri ilə telefon nömrələrimizi götürmüşük və daim bir-birimizə dəstək oluruq. Əlaqələrini itirdiyim dostları tapmaq və onların necə yaşadıqlarını öyrənmək istərdim. Müharibə zamanı çoxlu dostlar qazandım. Axı mən 18 yaşımda hərbi xidmətə çağırıldım və bir neçə ay sonra İkinci Qarabağ müharibəsi başladı. Vətən müharibəsinin 44 günü ərzində bir neçə növbətçi məntəqəni dəyişdim və yaralandım. Qələbəni Şuşada olanda qeyd etdim. Yadımdadır, gecə növbətçisi bizi oyadıb dedi ki, müharibə bitdi. Hamı çox xoşbəxt idi. Üç il keçdi, amma o gecəni indiki kimi xatırlayıram.

***- Hazırda Qarabağda baş verənləri izləyirsinizmi?***

- Təbii ki, xəbərlərə baxıram və narahat oluram. Sentyabrın 19-da Azərbaycan Müdafiə Nazirliyi Qarabağda lokal antiterror tədbirləri elan etdi və o günlərdə mən rahat yata bilmirdim. Bu, mənim Vətənimdir və əgər məni yenidən hərbi xidmətə çağırsaydılar, heç şübhəsiz, onu müdafiə etmək üçün yenidən ayağa qalxardım. Yadımdadır, Azərbaycan tarixi ədaləti bərpa edəndə Zaqatalada hamı çox sevinirdi. Təəssüflər olsun ki, itkilər oldu, ölənlərə yas tutur, yaralılara şəfa diləyirik. Ümid edirəm ki, bu, sonuncu müharibə idi və biz bir daha əsgər itirməyəcəyik. Azərbaycan haqlı olaraq ona məxsus olan hər şeyi geri qaytardı.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti çərçivəsində hazırlanıb*



# Azərbaycanda dəniz turizminin inkişafına nə mane olur?

“Ümumiyyətlə, 2016-cı ildə qəbul olunmuş ixtisaslaşmış turizmdə dövlət yol xəritəsində dənizin imkanlarından turizm məqsədləri üçün istifadə olunması ilə bağlı fikirlər qeyd olunub. Bizim Xəzər dənizi sahilində yerləşməmiz, böyük bulvar ərazimizin olması, dənizdə turistik gəmilərlə səyahətlərin həyata keçirilməsi turistlər üçün də çox maraqlı ola bilər. Bu nümunələr digər dənizkənarı ölkələrdə artıq mövcuddur. Həmin nümunələrdən istifadə edərək biz də turistik məhsullar yarada bilərik”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib.

Onun sözlərinə görə, Azərbaycana səfər edən turistlər burada qaldığı müddətdə dəniz turizmindən istifadə edərək öz vaxtlarını əyləncəli və səmərəli keçirə bilərlər: ”Hazırda ölkədə dəniz turizminin inkişafı üçün ciddi icazələr lazımdır. Bununla bağlı müxtəlif qurumlar razılıq verməlidir. Səmərəli təkliflər hazırlanmalıdır ki, dəniz turizminin həyata keçirilməsi üçün hər hansı bir əngəl olmasın”. Ekspert sözlərinə davam edərək bildirib ki, istər turistik gəminin dənizə buraxılışı, istər onun marşrutunun müəyyən olunması, fəaliyyət istiqaməti və s. qurumlar arasında bir əməkdaşlıq nəticəsində təmin olunmalıdır: ”Hesab edirəm ki, əgər bu bürokratik məsələlər bir qədər sadələşərsə və bu sahədə sahibkarlar üçün maraqlı şərait yaradılarsa ölkədə dəniz turizminin inkişafını qısa müddətdə ərsəyə gətirmək olar”.

***Ləman Sərraf***





SON SƏHİFƏ
SƏS
12 oktyabr
2023-cü il

# Sükan arxasında telefonla danışmaq qəza və ölümə yol açır!

*QURUM RƏSMİSİ XƏBƏRDARLIQ EDTİ*



"Bu günləri sürücülər nəinki telefonla danışıb ondan istifadə edir, hətta avtomobil idarə edən halda mesaj belə yazırlar. Biz sürücülərin telefondan lüzumsuz formada istifadə hallarının sıx-sıx şahidi oluruq. Bunlar hər biri diqqəti yayındıran hallardır". Bu barədə SİA-nın sorğusuna cavab olaraq Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli deyib.

Onun sözlərinə görə, ümumilikdə bu gün sürücülərin telefondan istifadə etməsi istər taksi fəaliyyətində, istərsə şəxsi nəqliyyat vasitələrini idarə edərkən, istərsə də ictimai nəqliyyatın digər formalarında sürücülər tərəfindən qaydaların pozulması kifayət qədər ciddi bir məsələdir: "Çünki sürücü üçün yollarda ən vacib olan məsələ diqqətdir. Diqqəti yayındıran hal kimi mobil telefonlardan danışıq məqsədilə və müxtəlif formada istifadə olunması çox ciddi təhlükədir. Baş vermiş nəqliyyat hadisələrinin hər birində də diqqəti yayındırma hallarına yol verilməsi xüsusilə vurğulanır. Bu baxımdan sürücülərdən avtomobil idarə edərkən, piyadalardan da yolu keçərkən telefondan istifadə etməməyi məsləhət görürük".

Araz Əsgərli sözlərinə belə davam edib: "Bu gün telefonların funksionallığının artması və onlardan gün ərzində fasiləsiz formada istifadə olunması bir bəlaya çevrilib. Bunun nəticəsidir ki, yol-nəqliyyat hadisələri kifayət qədər ağır nəticələrlə yekunlaşır. Bu halda avtomobillər arasında toqquşma baş verə və piyadalar vurula bilər. Telefondan istifadə sürücünün diqqətsizliyini və piyadanın səhlənkarlığını şərtləndirən amillərdəndir. Bu məsələni hər bir formada cəmiyyətdə qabartmaq və təhlükəli vərdiş olduğunu çatdırmağı özümüzə vəzifə hesab etmişik. Reallıq isə ondan ibarətdir ki, kimlərsə məsuliyyətini düzgün şəkildə dərk etmir və nəticədə telefonla məşğul olmaq marağı sürücüləri faciəyə sürükləyir.

Hər bir sürücüdən və piyadadan əsas xahişimiz odur ki, bu cür məsələlərə yalnız polisi göründə qanun pozuntusundan yayınmaq məqsədi kimi yox, həyat və sağlamlıq baxımından zəruri vərdiş kimi qəbul edib təhlükə ilə mübarizə aparmaq üçün əməl etsinlər".

***Ayşən Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Türkiyə "Avro-2032"dən nə qədər qazanacaq?



Xəbər verdiyimiz kimi, UEFA İcraiyyə Komitəsinin qərarına əsasən, "Avro-2032"nin final mərhələsi iki ölkə - Türkiyə və İtaliyada keçiriləcək. Qurum həmçinin "Avro-2028"in ev sahibliyi bağlı da qərar verib. Qərara əsasən, həmin yarışı Böyük Britaniya Krallığına daxil olan ölkələr (İngiltərə, Şimali İrlandiya, Şotlandiya və Uels) və İrlandiya qəbul edəcək. Türkiyə Futbol Federasiyasının prezidenti Mehmet Büyükekşi "Avro-2032"nin idman sahəsi ilə yanaşı Türkiyə iqtisadiyyatına da önəmli töhfə verəcəyini söyləyib: "Dünyanın bütün qitələrindən ölkəmizə qonaqlar gələcək".

Onun fikrincə, çempionat günlərində Türkiyəyə 2 milyondan cox turist səfər edəcək. Büyükekşinin təxminlərinə görə, Türkiyə "Avro-2032"dən 1 milyard dollardan çox gəlir götürəcək.

# Həkim səhvi zamanı nə etməliyik?

*VƏKİL AÇIQLADI*



"Mülki Məcəllənin 1112 maddəsinə əsasən tibb müəssisəsində müalicə zamanı cərrahiyə əməliyyatın yanlış diaqnozu nəticəsində şəxsin sağlamlığına vurulmuş zərərin əvəzi ümumi əsaslarla ödənilir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, yeni tibb müəssisəsi orada çalışan həkimlərin əməlləri üçün məsuliyyət daşıyır: "Klinikada çalışan həkim səhv edirsə və bunun nəticəsində xəstəyə zərər dəyirsə, bu zaman dəymiş zərərin əvəzi klinika tərəfindən ödənilməlidir. Klinika da, öz növbəsində, ona dəymiş zərərin ödənilməsini həkimdən reqnes qaydasında tələb edə bilər.

Həkimlərin Hippokrat andının mətnində belə bir cümlər var: "Müalicəmi heç vaxt pislik üçün deyil, kömək üçün istifadə edəcəyəm". Həkimlərin etik davranış qaydalarında isə qeyd olunmuşdur ki, həkim öz fəaliyyətini peşəkarlıq səviyyəsində həyata keçirməli, pasienti əsassız riskə məruz qoymamalı və səhiyyə müəssisəsinin nüfuzunu aşağı sala biləcək hərəkətlərdən çəkinməlidir". Turan Abdullazadə sözlərinə belə davam edib: "Cinayət Məcəlləsində belə bir norma da var:

**Maddə 314. Səhlənkarlıq**

314.1. Səhlənkarlıq, yəni vəzifəli şəxsin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz xidməti vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və ya qanuni mənafelərinə və ya dövlətin və ya cəmiyyətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulmasına səbəb olduqda - min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz altmış saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

314.2. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda - iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

314.3. Bu Məcəllənin 314.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda - üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

***Ayşən Vəli***


## ELAN

"KAN" Məhdud Məsuliyyətli Cəmiyyətinin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000